# Diaspor təşkilatlarımız Niderlandın qərəzli mövqeyinə qarşı

**Azərbaycan diaspor təşkilatları Niderland Krallığının ölkəmizə qarşı qərəzli mövqeyini pisləyiblər. Buna səbəb həmin ölkənin ictimaiyyətə təqdim etdiyi proqramda Azərbaycan ərazilərinin azad edilməsinin, guya, "Dağlıq Qarabağın ələ keçirilməsi" kimi qeyd olunmasıdır.**




Niderland–Belçika Azərbaycanlıları Koordinasiya Şurası, "Ana Vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyi, Niderland–Azərbaycan Türk Kültür Dərnəyi, Benelüks Azərbaycanlıları Konqresi, Beynəlxalq Azərbaycanlı Xanımlar Klubu, Azərbaycan-Niderland "Odlar Yurdu" Cəmiyyəti Niderland hökumətinin belə qərəzli mövqeyi barədə birgə bəyanat yayıblar.

Bəyanatda Azərbaycanın öz torpaqlarını azad etməsinin "Dağlıq Qarabağın ələ keçirilməsi" kimi göstərilməsinin qəbuledilməz olduğu və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün atdığı addımları tamamilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həyata keçirdiyi vurğulanıb. Bəyanatda, həmçinin Qarabağ bölgəsinin "Dağlıq Qarabağ" kimi adlandırılması qətiyyətlə rədd edilib.

Bəyanatın sonunda diaspor təşkilatları Niderland hökumətini obyektiv və balanslı yanaşmaya və Azərbaycanla münasibətlərə mənfi təsir edə biləcək bəyanatlardan çəkinməyə çağırıb.


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 206 (30610) 21 sentyabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Qarabağ Universiteti – milli təhsilimizə Zəfər töhfəsi

## Prezident İlham Əliyevin Xankəndiyə səfəri

## Qarabağ Universitetinin tələbə yataqxanasının təmirdən sonra açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin tələbə yataqxanasının təmirdən sonra açılışında iştirak edib.**

Elm və Təhsil naziri Emin Əmrullayev və Qarabağ Universitetinin rektoru Şahin Bayramov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdilər.

Bildirildi ki, universitet şəhərciyində tələbələrin və əməkdaşların yaşaması üçün müvafiq binalar ayrılıb.

Prezident İlham Əliyev tələbə yataqxanasında yaradılan şəraitlə tanış oldu. Tələbələrin yaşaması üçün nəzərdə tutulan yataqxana mənzil tipli 5 binadan ibarətdir. Binaların hamısı müasir standartlar səviyyəsində əsaslı təmir olunub. Bütün mənzillər müvafiq avadanlıqlarla təchiz edilib, yaşayış şərtləri müasir kampus konseptinə uyğunlaşdırılıb. Yataqxanada istirahət guşələri, yeməkxana və idman sahəsi də fəaliyyət göstərəcək. Ümumilikdə, 1154 tələbənin yataqxanada ödənişsiz əsaslarla məskunlaşması təmin edilib.



Qeyd olundu ki, universitet şəhərciyində əməkdaşların və onların ailələrinin yaşaması üçün nəzərdə tutulan 4 binada isə ümumilikdə 186 mənzil mövcuddur. Bütün mənzillər əsaslı təmir olunub və müvafiq avadanlıqlarla təchiz edilib. Hazırda 140-a qədər əməkdaşın və onların ailə üzvlərinin məskunlaşması təmin olunub. Əməkdaşların universitetdə çalışdıqları müddətdə həmin mənzillərdə ödənişsiz əsaslarla yaşaması nəzərdə tutulub.

# Prezident İlham Əliyev Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım edib



**Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb.**

AZƏRTAC xəbər verir ki, paylaşımda "20 Sentyabr – Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü" sözləri yer alıb.

# Birinci vitse-prezident Mehriban Əliyevanın Dövlət Suverenliyi Günü münasibətilə paylaşımı




**Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, Dövlət Suverenliyi Günü ilə bağlı paylaşılan fotonun üzərində bu sözlər yazılıb: "Əziz həmvətənlər, Dövlət Suverenliyi Günü münasibətilə sizi təbrik edirəm! Qoy qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı bahasına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz əbədi olsun!".

# Üçüncü fiasko

## İrəvanı daha ağır aqibət gözləyir

**44 günlük müharibənin nəticələri təkcə Ermənistana deyil, bütövlükdə, dünya erməniliyinə son dərəcə böyük zərbə idi. Azərbaycan diplomatiyası bu durumu hələ savaşdan əvvəl formalaşdırmışdı. Ancaq müharibə günlərində dünyanın ayrı-ayrı qütblərinin anti-Azərbaycan motivli gedişlərini, ölkəmizi, az qala, işğalçılıqda günahlandıran bəyanatlarını gördük. Əlbəttə, belə neqativ təmayüllərin Ermənistana dəstək baxımından heç bir faydası olmadı.**

Vətən müharibəsindən sonrakı Ermənistanın müdafiə cəhdləri diqqətimizdən yayınmadı. Bəzi beynəlxalq dairələr ölkəmizin Vətən müharibəsində qazandığı Zəfəri heçə endirməyə, Qarabağda erməni avantürizmini saxlamağa cəhd göstərdilər. İrəvana silah-sursat yardımı həyata keçirildi, ölkəmizə qarşı mina terroru reallaşdırıldı, diplomatik vasitələrdə Qarabağ erməniləri üçün təminat məsələləri gündəmə gətirildi. Ən əsası isə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini mübahisələndirmək istəkləri baş qaldırdı. Bütün bunların Ermənistana ancaq ziyanı oldu.

**(ardı 6-cı səhifədə)**






## Böyük Qayıdışa dair növbəti icra monitorinqi başa çatıb

Səhifə ⇨ 7

## İsveçrə Parlamentində "erməni sorğusu"

Səhifə ⇨ 5

## Qarabağda "ağıllı" su sistemləri qurulur



Səhifə ⇨ 9

# Xankəndi şəhərində Qarabağ Universiteti təmirdən sonra istifadəyə verilib

## *Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edib.**

Dövlətimizin başçısına ali təhsil ocağında yaradılan şəraitlə bağlı məlumat verildi.

Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü il noyabrın 28-də "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılıb.

Dövlətimizin başçısının birbaşa diqqət və qayğısı nəticəsində qısa müddət ərzində Universitetdə müasir tədris infrastrukturu yaradılıb. Ali təhsil ocağının bütün ərazisində genişmiqyaslı abadlıq işləri həyata keçirilib. Əsas tədris binasının qarşısındakı park sökülüb, onun yerində 2,3 hektar ərazidə müasir tələblərə uyğun yeni park salınıb.

Prezident İlham Əliyev Qarabağ Universitetində yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, bütün tədris binaları əsaslı təmir olunub. Əsas tədris binasının fasadı yenilənib, kommunikasiya xətləri quraşdırılıb, tədris və inzibati otaqlar müasir tələblərə cavab verən müvafiq avadanlıqlarla təchiz edilib.

Qarabağ Universiteti hazırda 3 tədris binasında yerləşir. Əsas tədris binasında Pedaqoji, Mühəndislik, Humanitar və sosial elmlər, İqtisadiyyat və Turizm fakültələri, 2-ci tədris binasında İncəsənət fakültəsi, 3-cü tədris binasında isə Beynəlxalq dil mərkəzi fəaliyyət göstərir.

Tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsi üçün ilk tədris ilinin müvafiq ehtiyacları nəzərə alınmaqla universitetdə 6 (Fizika, Kimya, Mexatronika, Robototexnika, Kompüter və qrafiki dizayn, Kompüter və proqramlaşdırma) laboratoriya yaradılıb.

Müasir standartlara uyğun şəkildə dizayn edilmiş universitet kitabxanasının xidmətlərindən eyni vaxtda 200 tələbə istifadə edə bilər. Kitabxananın fondunda Azərbaycan, ingilis və rus dillərində 6 mindən çox dərslik və digər ədəbiyyat mövcuddur. Burada tələbələr "Elektron kitabxana" sisteminin geniş imkanlarından faydalana bilərlər.

Qeyd edildi ki, bu tədris ilində ölkənin və regionun ehtiyacları, həmçinin beynəlxalq əmək bazarının müasir trendləri nəzərə alınmaqla, ilkin mərhələdə Qarabağ Universitetində kadr hazırlığı 6 fakültədə – Pedaqoji, İncəsənət, Humanitar və sosial elmlər, İqtisadiyyat, Mühəndislik və Turizm fakültələrində aparılacaq.

Hazırda universitetin 160 əməkdaşı var. Onlardan 60 nəfəri akademik heyətin üzvü, 100 nəfəri isə inzibati və texniki heyətin üzvüdür.

Kadr heyətinin seçimi zamanı Qarabağ Universitetinin fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili üçün vacib olan bilik və bacarıqlara sahib peşəkar mütəxəssislərə üstünlük verilib. Müvafiq vəzifələrin tutulması üzrə vakansiya elanları Elm və Təhsil Nazirliyinin rəsmi saytında və universitetin sosial şəbəkə hesablarında geniş ictimaiyyətin diqqətinə çatdırılıb.

Hazırda peşəkar və təcrübəli yerli və xarici professor-müəllim heyətinin akademik fəaliyyətə cəlb olunması istiqamətində işlər davam etdirilir. Bu prosesdə xaricdə yaşayan azərbaycanlı alimlər və müvafiq dövlət proqramları ilə nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil alan gənclər diqqət mərkəzində saxlanılır.

Bildirildi ki, 2024/2025-ci tədris ili üzrə universitetin bakalavriat səviyyəsinə tələbə qəbulu planında ümumilikdə 1120 yer nəzərdə tutulub. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələrinə əsasən 1104 tələbə qəbul olub və qəbul planı 98,5 faiz yerinə yetirilib.

Qarabağ Universitetinə qəbul olan tələbələrdən 101 nəfəri 600-dən, 385 nəfəri isə 500-dən çox bal toplayıb. Ən yüksək nəticə 683,8 balla Hüquqşünaslıq ixtisası üzrə qeydə alınıb. Olimpiada qalibi olan bir abituriyent universitetin Elektrik və elektronika mühəndisliyi ixtisasına müsabiqədənkənar qəbul edilib. Ümumilikdə, Qarabağ Universitetinə I-IV ixtisas qrupları üzrə orta qəbul balı 467,6 təşkil edib.

Bundan əlavə, ilk tədris ilində Qarabağ Universitetində Hüquqşünaslıq, Xarici dil müəllimliyi (ingilis dili), Maliyyə və Mühasibat ixtisasları üzrə SABAH qrupları təşkil olunub. Müxtəlif ali təhsil müəssisələrinin birinci tədris ilini (kursunu) bitirmiş tələbələri arasında keçirilən müsabiqədə uğur qazanan 60 tələbə sözügedən 4 ixtisas üzrə Qarabağ Universitetinin SABAH qruplarında ikinci tədris ilində təhsil alacaq.

Dövlətimizin başçısı Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşüb və çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı




– Sabahınız xeyir olsun. İlk növbədə, sizi və bütün Azərbaycan xalqını Dövlət Suverenliyi Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu günü biz birlikdə Xankəndidə qeyd edirik və əminəm ki, 20 Sentyabr bundan sonra Azərbaycanda geniş qeyd ediləcək.

Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa etmişdir. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi. Bu günü bizə bəxş edən qəhrəman hərbçilərimizi hər zaman böyük minnətdarlıqla yad edirik. Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini daim qəlbimizdə saxlayırıq və saxlayacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Vətən müharibəsi və antiterror əməliyyatı keçirilərkən bizim 3200-dən çox qəhrəman şəhidimiz şəhadət zirvəsinə ucalmışdır. Onların və digər qəhrəman hərbçilərimizin rəşadəti və vətənpərvərliyi Qələbənin əsas amilləridir. Vətən uğrunda İkinci Qarabağ müharibəsində 90 mindən çox gənc azərbaycanlı iştirak etmişdir.

Bildiyiniz kimi, 44 gün ərzində şanlı Ordumuz hər gün irəli gedirdi, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi və bildiyimə görə, dünya hərb tarixində buna oxşar hərbi əməliyyatlar olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur. Sinəsini qabağa verən, ölümə gedən gənclər bir amalla yaşayırdılar ki, milli ləyaqətimizi bərpa edək və bunu etdik. Ona görə mənəvi-psixoloji üstünlük bir daha bizim ümumi üstünlüyümüzü göstərir. Müharibədən keçmiş ölkə kimi və Ali Baş Komandan kimi müharibənin nəticələrini şərtləndirən amillərə nəzər salaraq, təhlil edərək tam əminliklə deyə bilərəm ki, birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır. Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat – bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz.

Bildiyiniz kimi, bu gün dünyada bir çox yerlərdə müharibələr, hərbi münaqişələr, toqquşmalar gedir, onların sayı azalmır, artır və indi hər şey göz qabağındadır. Müqayisə etmək üçün də kifayət qədər imkanlarımız var, məlumatlarımız var. 44 gün ərzində bu çətin coğrafiyada düşmənin 5-6, bəzi yerlərdə 7 müdafiə xəttini yararaq hər gün irəliyə getmək, itkilər verərək aşağıdan yuxarıya qalxmaq, Şuşa kimi alınmaz qalanı sıldırım qayalara dırmaşaraq ancaq yüngül silahlarla azad etmək, – müasir tarixdə hansı ordu buna bənzər qəhrəmanlıq, peşəkarlıq göstərmişdir! Bu, həqiqətdir.

Təbii ki, biz bu Qələbə ilə, haqlı olaraq hərbçilərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Ancaq əminəm ki, hər bir qərəzsiz təhlilçi, hərbi ekspert və obyektiv insan bizim bütün bu 44 günlük qəhrəmanlıq salnaməsini təhlil edərək eyni nəticəyə gəlməlidir.

O ki qaldı, antiterror əməliyyatının keçirilməsinə, burada da cəmi bir neçə saat davam edən əməliyyat Azərbaycan Ordusunun tam zəfəri ilə başa çatmışdır. Ermənistan ordusunun 15 mindən çox hərbi kontingenti tamamilə iflic vəziyyətinə düşmüşdür və bir neçə saatdan sonra kapitulyasiya şərtlərini artıq biz onlarla müzakirə etməyə başlamışdıq. İndi deyilir ki, 23 saat davam etdi, bəli ümumi proses 23 saat davam etdi. Ancaq bu prosesin hərbi hissəsi bir neçə saat davam etmişdir. Bütün bunlar bir daha dövlətimizin gücünü, xalqımızın iradəsini, gənc nəslin tərbiyəsini, bacarığını göstərir. İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı imkan verdi ki, Azərbaycan nəinki beynəlxalq hüququ bərpa etdi, nəinki öz milli qürurunu bərpa etdi, bütün dünyaya nümayiş etdirdi ki, ədalətsizlik əbədi davam edə bilməz.

İşğal dövründə keçmiş köçkünlərlə mənim çoxsaylı görüşlərim olmuşdur. Bildiyiniz kimi, onların yaşayış şəraitini yaxşılaşdırmaq üçün dövlət bir çox önəmli layihələr icra etmişdir. Biz demək olar ki, hər il 15-20 min keçmiş köçkünü yeni qəsəbələrə, evlərə, mənzillərə köçürürdük və beləliklə, onların yaşayış səviyyəsi yaxşılaşırdı. Təqribən 300 mindən çox keçmiş köçkün artıq o yataqxanalardan, o yararsız yerlərdən, uşaq bağçalarından köçürülmüşdü. Ancaq, eyni zamanda, onlarla hər dəfə görüşəndə deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir, gün gələcək və azad edilmiş torpaqlarda sizin üçün daha gözəl şərait yaradılacaq. Mən buna inanırdım, onlar da inanırdılar, bütün xalqımız buna inanırdı, bu fikirlə yaşayırdı. Amma, eyni zamanda, illər keçdikcə mən görürdüm ki, onların ümidləri yavaş-yavaş azalır. Bu da təbiidir, çünki işğal təxminən 30 il davam etdi.

Minlərlə, on minlərlə keçmiş köçkün bu Qələbə gününü görə bilmədi, həyatdan getdi. Təbii olaraq dünyada gedən prosesləri təhlil edərək mövcud ədalətsizliyi, beynəlxalq hüququn işləməməsini, böyük dövlətlərin Ermənistanın arxasında dayanmasını, bütün bunları – geosiyasi vəziyyəti təhlil edərək ola bilər kimsə belə fikrə gələ bilərdi ki, bu işğalla biz əbədi yaşamalıyıq. Biz bütün bu tezisləri, bütün bu paradiqmaları darmadağın etdik. Biz göstərdik ki, güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz – nə 6, 7, 8, 9, 10 müdafiə xətti, nə Ermənistan ordusunun coğrafi üstünlüyü, – çünki bütün təpələrdə onlar yerləşmişdi, – nə böyük dövlətlər, nə də Ermənistanı silahlandıran və onlara mənəvi və fiziki yardım göstərən dövlətlər. Bax, bütün bu amillər bir yerdə olanda, o xalqın qabağında heç kim dura bilməz. Biz bütün dünyaya və bu gün işğaldan əziyyət çəkən, hətta müstəmləkəçilikdən əziyyət çəkən xalqlara göstərdik ki, inamla yaşamaq lazımdır. İnam heç vaxt qırılmamalıdır. Əgər inam qırılsa, onda heç vaxt ədalət zəfər çala bilməz. Amma dünyada ədalət var. Prezident kimi müəyyən dövrlərdə mənim də ağlıma belə fikirlər gəlirdi ki, yəqin dünyada ədalət yoxdur. Amma bilirdim ki, bu ədalətə çatmaq üçün sən gərək onu əldə edəsən, o, göydən düşməz. Sən haqlısan, bütün dünya da sənin haqlı olduğunu etiraf edir, bilir, ancaq nəticə yoxdur. Ona görə gələcək fəaliyyətimiz üçün də bu, əsas olmalıdır. Əlbəttə ki, bu gün işğaldan əziyyət çəkən və ədalətsizliklərlə üzləşən bir çox xalqlar üçün bizim nümunəmiz bir ümid işığıdır. Bu, önəmlidir. Amma bizim xalqımız üçün gələcəkdə öz gücünə güvənmək, güclü olmaq, güclü dövlət qurmaq, heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək – bax, bu, əsas hədəflərimizdir. Bunu təmin etmək üçün əlbəttə ki, dövlət siyasəti olmalıdır və var. Cəmiyyətdə birlik olmalıdır, bu da var. 44 günlük Vətən müharibəsi onu göstərdi ki, bəlkə də heç bir ölkədə bizim cəmiyyətimiz qədər birlik nümayiş etdirən cəmiyyət yoxdur. Bizdən sonra gələn nəsil, gənclər də bu yolla getməlidirlər. Onlar, ilk növbədə, milli ruhda tərbiyə almalıdırlar, öz mədəniyyətinə, ənənələrinə, mənəvi dəyərlərinə sadiq olmalıdırlar. Heç kimin təsiri altına düşməməlidirlər, müxtəlif vədlərə aldanmamalıdırlar. Bizim bu 30 illik işğal dövrümüz onu göstərdi. Demək olar ki, bütün böyük güclər, onların hamısı bu işğalı əbədi etmək istəyirdi. Heç biri istəmirdi ki, xalqımız bu işğaldan yaxasını qurtarsın. Yəni, daim bizi təzyiq altında saxlamaq, daim bu işğaldan bir təsir amili kimi istifadə etmək, öz maraqlarını təmin etmək və nəticə etibarilə bizi bu vəziyyətlə barışdırmaq istəyirdilər. İşğal dövründə müxtəlif paytaxtlardan gələn qonaqlar dəfələrlə deyirdilər ki, bu məsələnin, bu münaqişənin hərbi həlli yoxdur. Bəlkə sizin də yadınızdadır ki, belə bir tezis var idi – bunun hərbi həlli yoxdur, sülh yolu ilə həll olunmalıdır. Eyni zamanda, o vaxt "Birinci Qarabağ" deyilmirdi, amma Qarabağ müharibəsinin nəticələri də nəzərə alınmalıdır. Yəni, bizi nə ilə barışdırmaq istəyirdilər?! Məğlubiyyətlə. İstəyirdilər ki, xalqımız bu məğlubiyyətlə razılaşsın.

Digər tezis ondan ibarət idi ki, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır. Deməli, qeyri-hökumət təşkilatlarının xətti ilə müxtəlif seminarlar keçirilirdi. Bizdən olan xarici dairələrə satılmışlar da gedib o treninqlərdə ermənilərlə cici-bacılıq edirdilər, sövdələşirdilər, birləşirdilər, birgə məclislər təşkil edirdilər. Qaniçən, Xocalı soyqırımını törədən, Qarabağ bölgəsində bütün şəhər və kəndlərimizi viran qoyan düşmənlə hansı təmaslardan söhbət gedə bilərdi? Amma bu işğalı əbədi etmək istəyənlərin də məqsədi o idi ki, gələcək nəsil, gənc nəsil artıq müharibə istəməyəcək, biz Ermənistanla barışaq, işğal da yerində qalsın. Bax, bütün bu planları biz Azərbaycan xalqı darmadağın etdik, alt-üst etdik. Ona görə bu günə qədər bizə qarşı əsassız ittihamlar, təzyiqlər edilir. Mən hər səhər mətbuatla, o cümlədən Azərbaycan haqqında dünyanın müxtəlif yerlərində gedən yazılarla tanış oluram. Bu gün səhər tezdən baxıram, bizə qarşı nə qədər əsassız ittihamlar işlədilir. Özü də müxtəlif Qərb ölkələrinin siyasətçiləri və yüksək vəzifə tutanlar, bəzi ölkələrin rəsmi nümayəndələri belə bir qəbuledilməz ifadələr işlədirlər ki, Azərbaycan Qarabağı zəbt edib. Yəni, bu, ikiüzlülüyün, riyakarlığın zirvəsidir. Ölkə öz torpağını necə zəbt edə bilər?! Bizim müharibəmiz azadlıq müharibəsi idi. Yəni, bunu deyənlər, bizə qarşı ittihamlar irəli sürənlər də bunu yaxşı bilirlər. Sadəcə olaraq, ikili standartlar, ikiüzlülük, riyakarlıq, islamofobiya və xalqımıza olan düşmənçilik – biz bunu heç vaxt unutmamalıyıq və gənc nəsil bunu bilməlidir. Çünki təbii olaraq siz o illəri yaşamamısınız və tarixi kitablardan oxuyursunuz. Ona görə həm orta məktəblərdə, həm də ali məktəblərdə müəllimlərin üzərinə çox böyük vəzifə düşür. Mən bu gün bizim müəllimlərimizi, onların işini xüsusilə qeyd etmək istəyirəm. Çünki bizim gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında onların çox böyük rolu olmuşdur, bu gün də var. İki tərbiyə mənbəyi var – ailə və müəllim. Xoşbəxtlikdən Azərbaycanda ailə dəyərləri üstün tutulur və həmişə belə olmalıdır. Bizim ənənələrimiz bunu diktə edir və eyni zamanda, bəzi Qərb ölkələrində ailə dəyərlərinin tamamilə eybəcər formasına düşməsi hər birimizdə haqlı olaraq ikrah hissi doğurur. Ona görə ailə dəyərləri, ailə tərbiyəsi birinci növbədə qorunmalıdır. Yenə də deyirəm, müəllimlər uşaqların, gənclərin biliklərini artırmaq, eyni zamanda, onların vətənpərvərlik ruhunda tərbiyəsi üçün fəal və səmərəli işləyirlər. İkinci Qarabağ müharibəsi bunu göstərdi. Heç vaxt Qarabağı görməyən gənclər Qarabağ uğrunda ölümə gedirdilər, ölümə getməyə hazır idilər, şəhid oldular, yaralandılar. Ancaq yenə də bu Zəfəri təmin etmək üçün dayanmadılar. Hərbi hospitallara yerləşdirilmiş hərbçilərimizin bir çoxu həkimlərə müraciət edərək deyirdi ki, tezliklə məni sağaldın, ayağa qaldırın, yenə də gedim döyüşüm, belələrinin sayı çox idi. Yüngül yaralanmış hərbçilər müalicədən sonra yenə də könüllü olaraq döyüş bölgələrinə gedirdilər.

*(ardı 3-cü səhifədə)*

# Xankəndi şəhərində Qarabağ Universiteti təmirdən sonra istifadəyə verilib

**(əvvəli 2-ci səhifədə)**

Bu gün, eyni zamanda, Qarabağ Universitetinin açılışıdır. Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir və keçən ilin noyabrında müvafiq Sərəncam imzalandı. Sonra mən buraya baş çəkdim. Artıq mənim buraya üçüncü gəlişimdir və bütün göstərişlər verildi, Elm və Təhsil Nazirliyi tezliklə bütün lazımi tədbirləri gördü. Demək olar ki, bina yenidən quruldu. Bu bina sovet dövründə Azərbaycan memarları, inşaatçıları tərəfindən inşa edilmişdi. İşğal dövründə bunu erməniləşdirmək üçün müəyyən işlər görülmüşdü. O əlamətlər də tamamilə silindi. Binanın önü açıldı, gözəl bir park yaradıldı. Master-plan hazırlandı, yəni gələcək illərdə, yəqin ki, növbəti üç ildə yeni tədris korpusları inşa ediləcək. Gözəl yataqxana yaradıldı, bu gün tanış olmuşam. Ən önəmlisi gənclər, yəni tələbələr buraya böyük həvəslə gəlməyə başladılar. İndi mənə məlumat verildi ki, 1200 tələbə var. Ölkəmizin hər bir bölgəsindən tələbə var. Yüksək bal toplayan, o cümlədən 600-dən çox bal toplayan tələbələr bizimlə görüşdə iştirak edirlər və buraya böyük həvəslə gəlmişlər. Müəllim heyəti də formalaşdı. Bilirəm ki, müəllimlər də böyük həvəslə bu işə başlayırlar və ümid edirəm ki, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var. İndi verilən məlumata görə, artıq altı fakültə yaradılıb. Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq. Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni, bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər.

Bura bizim tarixi torpağımızdır və əminəm ki, bunu Azərbaycanda bilməyən yoxdur, dünyada da bunu bilirlər ki, Xankəndi şəhəri qədim Azərbaycan yaşayış yeri olubdur, onun adı onu göstərir – Xanın kəndi. Sadəcə olaraq, yenə də Azərbaycana, xalqımıza qarşı düşmənçilik siyasəti nəticəsində uzun illər ərzində bizim nəzarətimiz burada ya zəif idi, ya da ümumiyyətlə, yox idi. Çünki XIX əsrin əvvəlində bağlanmış üç müqavilə – "Kürəkçay", "Gülüstan", "Türkmənçay" müqavilələri faktiki olaraq sonrakı işğalı da şərtləndirdi. Məhz bu müqavilələrdən sonra heç vaxt Qarabağ torpağında yaşamayan ermənilər kütləvi surətdə İrandan və Şərqi Anadoludan buraya köçürülmüşdür və bu, həqiqətdir, bu, dəqiq tarixdir. Sadəcə olaraq, Ermənistan və erməni alimləri hər zaman olduğu kimi, tarixi təhrif edərək yeni uydurma tarix yaratmağa çalışırdılar və öz lobbi şəbəkələri vasitəsilə müəyyən dərəcədə beynəlxalq ictimaiyyəti də çaşdırmağa nail olmuşdur.

XX əsrin əvvəlində isə xalqımıza qarşı növbəti düşmənçilik addımları atılmışdır. 1923-cü ildə heç bir əsas olmadan Azərbaycanda, Qarabağda "Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradılmışdı, sovet Azərbaycanı Respublikasının tərkibində. Bu vilayətin tabeçiliyi Sovet İttifaqının mərkəzinə bağlanmışdı. Beləliklə, bu bölgəni Azərbaycandan ayırmaq üçün növbəti addım atıldı. Ondan üç il əvvəl Zəngəzuru bizdən aldılar, yəni Qərbi Zəngəzuru, tamamilə əsassız. Bunu 1920-ci ilin noyabr ayında, Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən bir neçə ay keçəndən sonra etdilər. 1923-cü ildə isə bizim canımıza növbəti saat bombasını saldılar və ondan sonra burada kütləvi erməniləşmə siyasəti aparılırdı. Müxtəlif yerlərdən, o cümlədən, Ermənistandan sovet hökuməti erməniləri buraya şüurlu olaraq doldururdu ki, burada ermənilərin sayı, yəni ovaxtkı muxtar vilayət çərçivəsində daha çox olsun. Eyni zamanda, burada mövcud olan separatizm meyillərinə də düzgün reaksiya verilmirdi. Ancaq Ulu Öndər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələndən sonra burada bütün separatçıların yuvaları dağıdıldı və sabitlik yaradıldı. Keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"ndə azərbaycanlıların sayı 9 faizdən, təqribən 30 faizə qədər artdı. Dəmir yolu çəkildi ki, azərbaycanlılar müxtəlif bölgələrdən buraya daha tez gələ bilsinlər. Xankəndidə dəmir yolu vağzalı tikildi, böyük infrastruktur layihələri yaradıldı - Sərsəng, Suqovuşan su anbarları. Hansılar ki, ermənilər işğal dövründə bizi sudan da məhrum etmişdilər. Bir neçə müəssisə yaradıldı və bu müəssisələrdə çalışan azərbaycanlılar müxtəlif bölgələrdən, o cümlədən, Qarabağ bölgəsindən gəldilər. Bütün bunlar davam edirdi. Ancaq 1987-ci ildə Heydər Əliyev istefaya göndəriləndən sonra yenə də separatçılar baş qaldırdılar və bu dəfə bu, xalqımıza çox baha başa gəldi. Bəlkə gənclər onu da bilmirlər, Heydər Əliyevin istefasından iki həftə sonra bir sovet erməni alimi Fransanın "Humanite" qəzetində məqalə dərc etmişdi ki, "Dağlıq Qarabağ Muxtar Vilayəti" Azərbaycandan çıxarılıb Ermənistana birləşməlidir. Cəmi iki həftədən sonra, – artıq Heydər Əliyev iqtidarda yox idi, – dərhal burada – Xankəndidə və Ermənistanda hərəkət başlamışdı, müxtəlif təşkilatlar yaradılmışdı. Mərkəzi hökumət, yəni Sovet İttifaqı rəhbərliyi buna laqeyd yanaşırdı. Hətta o, separatçıları, erməni millətçilərini, necə deyərlər, stimullaşdırırdı, onları daha da fəal olmağa təhrik edirdi. Qarşıya vəzifə qoyuldu ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi zəiflik, qorxaqlıq, bəzi hallarda xəyanət göstərmişdir. Həm 1980-ci illərin sonlarında, həm 1990-cı illərin əvvəllərində, həm kommunist, həm də Xalq Cəbhəsi hakimiyyətinin satqınlığı, qorxaqlığı, xəyanəti nəticəsində biz torpaqları itirdik.




Xankəndidən azərbaycanlılar qovuldu, ondan sonra – müstəqillik elan olunandan dörd ay sonra 1992-ci ilin fevralında Xocalı soyqırımı törədildi, 1992-ci ilin may ayında Şuşa, Laçın işğal olundu, 1993-cü ilin aprelində isə Kəlbəcər. Beləliklə, xəritəyə baxsanız görərsiniz ki, bütün böyük bir bölgə nəzarətdən çıxdı və faktiki olaraq Ermənistanla Qarabağ bölgəsi arasında coğrafi əlaqə yaradıldı. Bax, bu idi bizim tariximiz.

Yenə də bu gün Ulu öndərin xatirəsinə hörmət ifadə edərək bir daha deyirik və görürük ki, əgər 1993-cü ildə xalqın tələbi ilə o, Azərbaycana gəlməsəydi, Azərbaycan, ümumiyyətlə, dünya xəritəsindən silinə bilərdi. Sabitlik yaradıldı, inkişafa qədəm qoyuldu və quruculuq işlərinə başlandı. Quruculuq və inkişaf işlərinin məntiqi nəticəsi 8 Noyabr – Zəfər Günümüzdür, Şuşanın azad olunması, Ermənistanın kapitulyasiyası və ondan sonrakı tarix artıq göz qabağındadır. Əgər 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər bizim bütün addımlarımızı və gördüyümüz işləri təhlil etsəniz görərsiniz ki, hər bir addım əvvəlki addımın məntiqi davamı idi və hər bir addımın son məqsədi 20 Sentyabr – Dövlət Suverenliyi Günü idi.

Mən bir daha sizi ürəkdən salamlayıram. Mən Azərbaycan tarixi haqqında çox danışa bilərəm. Çünki mən bu tarixi yaşamışam, son 30 ilin tarixini və bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək doğrudan da böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz. Müəllimlərə, tələbələrə uğurlar arzulayıram. Yaxşı işləyin, yaxşı oxuyun ki, hər zaman Azərbaycan zəfər çalsın, hər zaman – əgər lazım olarsa, həm döyüş meydanında, həm iqtisadi sahədə, həm siyasi müstəvidə, hər bir yerdə Azərbaycan həmişə zirvələrdə olsun! Sizi təbrik edirəm.

*

**Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxış edərək dedi:**

– Möhtərəm cənab Prezident, Sizi Qarabağ Universiteti ailəsi adından böyük şərəflə və sonsuz qürur hissləri ilə salamlayırıq. Biz də fürsətdən istifadə edərək, ilk növbədə, Sizi 20 Sentyabr – Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü münasibətilə bütün kollektivimiz adından təbrik edirik.

Təbii ki, bu gün Qarabağ Universitetinin açılışını Sizin iştirakınızla etməyimiz Ali Baş Komandanlığınızla qazanılmış tarixi Zəfərin növbəti təntənəsidir. Buna görə Sizə dərin təşəkkürümüzü bildiririk. İlk növbədə, xüsusi vurğulamaq istəyirəm ki, Qarabağ Universitetini yaratdığınıza və onun qısa bir zamanda fəaliyyətə başlamasına çox böyük dəstək göstərdiyinizə, davamlı qayğınıza görə bütün heyətimiz adından Sizə təşəkkür edirik.

Sizin müvafiq tapşırıq və göstərişləriniz əsasında Qarabağ Universitetinin qurulması yolunda işlərimiz sürətlə davam edir. Çox qısa olaraq məlumat vermək istəyirəm ki, bütün heyətimiz çox peşəkar insanlardan formalaşdırılıb. Bizi çox sevindirir və qürurlandırır ki, Qarabağ Universitetinin ilk tələbələri üçün elan etdiyimiz qəbul planı tam dolub və xüsusi vurğulayaq ki, tələbə qəbulu çox keyfiyyətli olub. Universitetimizə qəbul olan tələbələr arasında imtahanlarda yüksək bal toplayan gənclərimizin sayı çoxdur. Bu, bizi qürurlandırır və keyfiyyətli universitet quruculuğu yolunda daha da ruhlandırır.

Təbii ki, tələbələrimizin Azərbaycanımıza layiqli vətəndaş, yüksəkixtisaslı mütəxəssis olmaları ilə bağlı vacib tapşırığınız var. Buna görə də universitetimizi yeni dövrün çağırışlarına uyğun, məhz müasir Azərbaycan gəncinin arzu və istəklərinə uyğun formalaşdırmağa çalışırıq. Universitetimizdə məhz buna uyğun akademik məzmun yaradılıb və yeni dövrə uyğun universitet idarəetmə modeli formalaşdırırıq. Əmin edirik ki, Qarabağ Universiteti Sizin böyük dəstəyinizlə çox qısa bir zamanda Azərbaycanımızın əsas elm, təhsil və innovasiya mərkəzlərindən birinə çevrilə biləcək. İstəyimiz ondan ibarətdir ki, tələbələrimizi Ulu öndərimizin ideyalarına sadiq, vətənpərvər ruhlu, müasir dünyagörüşlü, milli-mənəvi dəyərlərimizə sadiq gənclər olaraq yetişdirə bilək ki, bütün gənclərimiz qarşıdakı dövrdə Azərbaycanımızın inkişafına öz layiqli töhfələrini verə bilsinlər.

Sizin tapşırığınızla Qarabağ Universitetinin qarşısına qoyulan əsas hədəf keyfiyyətli ali təhsil xidmətləri göstərmək, nəticəyönümlü tədqiqatlar həyata keçirmək və cəmiyyətimizə faydalı ola biləcək innovativ həllər tətbiq etməkdir. Təbii ki, işğaldan azad olunmuş torpaqlarımızda fəaliyyətə başlayan ilk universitetin və ya adı Qarabağla bağlı olan bir universitetin heyətində təmsil olunmaq hər birimiz üçün sonsuz şərəfdir və həm də çox böyük məsuliyyətdir. Bu məsuliyyəti aydınlığı ilə dərk edirik. Siz çox doğru vurğuladınız ki, bu universiteti tarixi Zəfəri yaşamış gənclər üçün yaratmısınız və məhz tarixi Zəfərin qazanıldığı torpaqda yaratmısınız. Bu, bizim məsuliyyətimizi daha da artırır.

Sizi əmin edirik ki, qarşımıza qoyduğunuz bütün tapşırıqları yerinə yetirmək üçün bütün heyətimiz formalaşıb. 1200 tələbəmizin gəlişi ilə gücümüz əhəmiyyətli şəkildə artıb, müasir gəclərimiz komandamızda formalaşıb. Əmin ola bilərsiniz ki, qarşımıza qoyulan bütün tapşırıqları yerinə yetirmək üçün var qüvvəmizlə çalışacağıq. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ ol. Təşəkkür edirəm.

*

**Sonra çıxış edən tələbə Fənarə Məmmədzadə dedi:**

– Hörmətli cənab Prezident, mən Bərdə şəhərində fəaliyyət göstərən Ağdam rayon 9 nömrəli tam orta məktəbin məzunuyam. Laçın rayonundan keçmiş məcburi köçkünəm. Doğma torpaqlarımızı heç vaxt görməsəm də, bu sevgimi qəlbimdə daşımışam. Bu gün çox xoşbəxtəm. Qəbul imtahanında 642 bal toplayaraq Qarabağ Universitetinin maliyyə ixtisasını seçmişəm və doğma yurduma tələbə statusunda qayıtmışam. İnanıram ki, tələbələrimiz Qarabağ Universitetinin bizə verdiyi imkanlardan ən doğru şəkildə istifadə edərək gələcəyin parlaq mütəxəssisləri olacaqlar və Qarabağımızın dirçəlməsində birlikdə iştirak edəcəklər.

Son olaraq doğma torpaqlarımızı işğaldan azad etdiyiniz və biz gənclərə burada təhsil almaq şansı yaratdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.

**Prezident İlham Əliyev:** Sağ ol, təşəkkür edirəm!

*

**Tələbə Rauf Penceyev dedi:**

– Möhtərəm Prezident, mən Bakı şəhəri 85 nömrəli tam orta məktəbin məzunuyam. Ötən ilin qəbul imtahanlarında 600 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olmuşam. Birinci kursda oxuduğum zaman Sizin Qarabağ Universitetinin yaradılması ilə bağlı Sərəncam imzaladığınız barədə xəbəri eşitdim. Bu xəbəri eşitdikdən sonra Qarabağ Universitetinin ilk tələbələrindən olmaq sevincini yaşamaq üçün əlimdən gələni etmək istədim və bunun üçün respublikamızda keçirilən "SABAH" qrupu imtahanlarında yüksək nəticə toplayaraq təhsilimi Qarabağ Universitetində davam etdirmək hüququ qazandım. Həm Qarabağ Universitetinin ilk tələbələrindən biri olmaq və həm də ilk məzunlarından biri olacağım üçün çox xoşbəxtəm və qürurluyam. Bu gün bu möhtəşəm tədbirdə - Qarabağ Universitetinin açılışında Sizin qarşınızda "SABAH" qrupunun tələbələrindən biri olaraq çıxış etməkdən fərəh hissi duyuram. Qarabağa ilk gəlişim Xankəndi şəhərinə təsadüf etdi və buraya tələbə statusunda gəlmək daha böyük qürurverici hissdir. Xankəndi şəhərində yaradılan şərait və infrastrukturla tanış olmuşam. Burada yaradılan şəraitə, ən əsası isə biz tələbələr üçün müasir tipli yataqxananı və qısa müddətdə Qarabağ Universitetini hazır vəziyyətə gətirdiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

**Prezident İlham Əliyev:** Sağ ol.

*

**Tələbə Zenfira Nəsirova dedi:**

– Möhtərəm cənab Prezident, mən Salyan şəhər, Aşıq Pənah adına 1 saylı məktəbin məzunuyam. Builki qəbul imtahanında 684 bal toplayaraq Qarabağ Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olmuşam. Doğrusu, topladığım bal mənə respublikamızın digər ali məktəblərini seçmək imkanını yaradırdı. Lakin məhz seçimim Qarabağ Universiteti oldu və sevinirəm ki, ailəm də bu seçimimi dəstəklədi. Çünki burada təhsil almaq hər bir azərbaycanlı gənc üçün böyük fəxarətdir. Bu gün bu tədbirdə iştirak edirəm və çox xoşbəxtəm ki, həm Qarabağ Universitetinin ilk tələbələrindənəm, həm də tələbələr arasında ən yüksək nəticəni mən göstərmişəm və Sizin qarşınızda çıxış etmək imkanı qazanmışam.

Biz tələbələr olaraq Sizi tam əmin edə bilərik ki, yüksək təhsil alıb peşəkar mütəxəssis kimi yetişərək ölkəmizə, Vətənimizə daim fayda verəcəyik. Yaradılan bütün şəraitə və ümumi olaraq Azərbaycan gəncinə göstərdiyiniz dəstəyə görə Sizə və Mehriban xanıma xüsusi təşəkkürümüzü bildiririk.

*

**Prezident İlham Əliyev:** Sağ ol. Təşəkkür edirəm!

Sağ olun, əziz dostlar, uşaqlar. Bir daha sizi həm Dövlət Suverenliyi Günü münasibətilə, həm də Qarabağ Universitetinin fəaliyyətə başlaması münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, uğurlar, yeni zəfərlər arzulayıram. Qarabağ Azərbaycandır!

*

Sonra Prezident İlham Əliyev universitetin həyətindəki parkda yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, burada 1,1 hektar sahədə yaşıllaşdırma işləri həyata keçirilib, müəllim və tələbələrin istirahəti üçün hər cür şərait yaradılıb.

Sonda Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə xatirə şəkli çəkdirildi.

***AZƏRTAC***

# "Əsrin müqaviləsi"nin 30 illiyi və Neftçilər Günü münasibətilə Azərbaycanın neft sənayesi işçilərinə

Hörmətli neft sənayesi işçiləri!

Sizi böyük iftixar hissi ilə "Əsrin müqaviləsi"nin 30 illiyi və peşə bayramınız – 20 Sentyabr Neftçilər Günü münasibətilə ürəkdən təbrik edirəm!

Ölkəmiz üçün əlamətdar tarixi hadisə olan "Əsrin müqaviləsi" və Neftçilər Günü məhz ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Otuz il öncə Ulu öndərin uzaqgörən siyasəti və dəmir iradəsi sayəsində imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın inkişafında dönüş nöqtəsi oldu, ölkəmiz beynəlxalq enerji layihələrinin fəal iştirakçısına çevrildi. Xarici tərəfdaşlarla birlikdə reallaşdırılan iri layihələr enerji xəritəsində ölkəyə strateji mövqe qazandırmaqla yanaşı, dünya enerji təchizatının sabitliyinə də töhfə verdi.

Ümummilli lider bu böyük layihəni həyata keçirməklə Azərbaycanın gələcək nəsillərinə iqtisadi müstəqillik və davamlı inkişaf mirası qoydu. Ötən 30 ildə ölkə iqtisadiyyatı gücləndi, Azərbaycanın regional və qlobal səviyyədə mövqeyi möhkəmləndi. İri xarici sərmayələr cəlb olundu, infrastruktur müasirləşdi, yeni iş yerləri yaradıldı və əhalinin həyat şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşdı.

Azərbaycan neft-qaz sektorunun inkişafı, şaxələndirilmiş enerji siyasəti, müasir enerji infrastrukturu və beynəlxalq əməkdaşlıq sayəsində etibarlı tərəfdaşa və nümunəvi ölkəyə çevrilib. Artıq dünyanın on ölkəsini mavi yanacaqla təchiz etməsi və enerji layihələrinin əhatə dairəsini davamlı genişləndirməsi regionda ölkəmizin əhəmiyyətini artırır, həmçinin yeni iqtisadi sahələrin inkişafına imkanlar yaradır.

Qlobal çağırışları nəzərə alaraq, Azərbaycan bərpaolunan enerji resurslarının artırılması üçün yeni təşəbbüslər həyata keçirir. "Yaşıl dünya naminə həmrəylik ili" və Azərbaycanın evsahibliyi edəcəyi COP29 beynəlxalq tədbiri dayanıqlı enerji mənbələrindən geniş istifadə, eləcə də bu sahədə beynəlxalq əməkdaşlığın inkişafı baxımından fürsət olmaqla, qlobal ekoloji problemlərin həllinə mühüm töhfə verəcəkdir.

Daim inkişaf edən neft-qaz sektoru hazırda yeni tarixi dövrünü yaşayır. Ötən illər ərzində qazanılan böyük uğurlar enerji sahəsinin inkişafı və onun təməli olan "Əsrin müqaviləsi" ilə bilavasitə bağlıdır.

Sizin Azərbaycan neft sənayesindəki uğurlarınızın gələcək nəsillərə də örnək olacağına inanıram. Əminəm ki, fədakar əməyinizin bəhrələri hələ uzun illər xalqımıza xidmət edəcək. Bu yolda hər birinizə yeni nailiyyətlər və müvəffəqiyyətlər arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 sentyabr 2024-cü il**

# Azərbaycan Respublikasının neft sənayesi işçilərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Bayramov Elman Eyvaz oğlu
Əliyeva Hicran Lətif qızı
Quliyev Arif Davidoviç
Şeydayev Əli Çingiz oğlu

**"Tərəqqi" medalı ilə**

Allahverdiyeva Nailə Rizvan qızı
Bağırov Elçin Bağır oğlu
Binboğa Ergün İnayet
Dadaşov Əli Seyfulla oğlu
Əbilhəsənova Lalə Cavanşir qızı
Əfəndi Surəddin Cəlal oğlu
Əliyev Nəriman Salman oğlu
Əliyev Səməd Məhəmməd oğlu
Əsədov Famil Əsəd oğlu
Hacıyev Ziya Xalid oğlu
İbrahimli Akif Arif oğlu
İsmayıl Bəhruz Akif oğlu
Kelli Katal Jozef
Məmmədov Cavid Pərviz oğlu
Məmmədov Əjdər Yaqub oğlu
Məmmədova Afaq Vilayət qızı
Məmmədova Elnarə Rafiq qızı
Məmmədova Səidə Tehran qızı
Osmanov Şaiq Faiq oğlu
Pehlivan Kamil Dursun
Seyidov Elman Ağazal oğlu
Vəliyev Azər Bahadur oğlu
Yusubova Aytən Elcan qızı
Zeynalov Tağı Mazan oğlu.

**2.** Azərbaycan neft sənayesinin inkişafında səmərəli fəaliyyətinə görə Nurəddin Həsən oğlu Məmmədova "Əməkdar mühəndis" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 sentyabr 2024-cü il**

# Nifrəti silaha çevirməyin aqibəti

**Yazımıza qısa hüquqi arayışla başlayırıq. Ermənistanın bu yaxınlarda böyük həvəslə qoşulduğu Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna əsasən, "əhalinin deportasiyası və ya zorla köçürülməsi" dedikdə, köçürülməyə və ya digər məcburi tədbirlərə məruz qalan insanların qanuni yaşadıqları ərazidən zorla çıxarılması nəzərdə tutulur. Yəni, gözünü yumub, ağzınızı göyə açıb, "deportasiya, etnik təmizləmə, zorla köçürülmə" çığırmaqla məsələ həll olunmur. Bunları beynəlxalq hüquq müstəvisində sübut etməlisiniz. Amma belə bir sübut yoxdur və ola da bilməz. O da maraqlıdır ki, bir il əvvəlki hadisələrlə bağlı İrəvan və ermənipərəst dairələr Azərbaycanı ittiham edirlər, amma bu zaman bir dəlil belə ortaya qoya bilmirlər.**

Bu dəfə də belə oldu. Ermənistan Xarici İşlər Nazirliyi, bu ölkənin eks-ombudsmanı 2023-cü il sentyabrın 19-20-də ordumuz tərəfindən öz suveren ərazilərimizdə aparılan antiterror tədbirlərini "Dağlıq Qarabağa hücum" və "etnik təmizləmə" kimi qələmə verməyə çalışırlar. "Sülhpərvər ölkə olduğunu iddia edən Ermənistan tərəfindən Azərbaycanın əzəli və əbədi torpağı olan Qarabağın "Dağlıq-Qarabağ" kimi qondarma adla çağırılması Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı hörmətsizliyin bariz nümunəsidir". Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan XİN-nin 19 sentyabr tarixli bəyanatına dair şərhində bildirib. Şərhdə daha sonra deyilir ki, ötən ilin 19–20 sentyabr tarixləri arasında Azərbaycan Silahlı Qüvvələri tərəfindən 24 saatdan az bir müddətdə suveren ərazilərimizdə aparılan antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən, beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə həyata keçirilib: "Azərbaycanın öz torpaqları üzərində suverenliyini bərpa etməsi tarixinin ən şanlı səhifələrindən biri olmaqla yanaşı, beynəlxalq hüquq və ədalətin təntənəsidir". XİN rəsmisinin şərhində o da vurğulanır ki, Ermənistan tərəfinin təhrikedici səylərinə və təbliğatına baxmayaraq, antiterror tədbirləri zamanı mülki əhali hədəf alınmadı, mülki infrastruktura ziyan vurulmadı, yalnız legitim hərbi infrastruktur və obyektlər sıradan çıxarıldı.

*

Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyanın dərc etdiyi hesabatda isə bir il əvvəl Qarabağdakı mülki əhalinin "gözlənilməz hücumla" üz-üzə qaldığı, "ailələrin bir qisminin çörək axtarışında, uşaqların məktəbdə olması səbəbindən bir-birindən ayrı düşdüyü, onlarca insanın həlak olduğu" qeyd olunur. Ombudsmanın Azərbaycanın məcburiyyət qarşısında keşirdiyi antiterror tədbirinin səbəbi kimi göstərdiyi motiv çox maraqlıdır: "Bir il bundan əvvəl baş verənlərin hamısı Azərbaycan dövlətinin ermənilərə qarşı dərin nifrət və irqçilik siyasətindən qaynaqlanırdı".

İki əsrdir ki, beşikdəki çağanı da türkə nifrət ruhunda tərbiyə edən bir qövmün insan haqları müdafiəçisi bizi onlara "dərin nifrət" bəsləməkdə suçlayır. Xocalı, Bağanıs Ayrım, Başlıbel qətliamlarını törədən terrorçu dövlətin sabiq ombudsmanının məntiqinə görə, 30 il ərazimizin 20 faizini



işğalda saxlayan separatçı rejimin hüzuruna gül-çiçəklə getməli imişik. Həqiqətən də, rəsmi Bakının yaşayış yerlərini tərk etməmək barədə çoxsaylı müraciətlərinə, təklif etdiyi reinteqrasiya proqramına baxmayaraq, ermənilər ərazimizi könüllü şəkildə tərk etmək qərarı verdilər. İndi onların azad seçimini "etnik təmizləmə" kimi qələmə vermək hüquqi nonsens olmaqla yanaşı, həm də riyakarlıq və ikiüzlülük nümunəsidir. Və bunu işğal etdiyi torpaqlarımızdan soydaşlarımızı silahla qovan, onlara qarşı kütləvi qırğınlar törədən Hayastan bəyan edir. Nifrəti silaha çevirənlərin son aqibəti necə olmalı idi ki?

*

Heç nəyi unutmamışıq. O cümlədən, dünya güclərinin himayəsindən ruhlanan inadkar Ermənistanın separatçı qurumun qalıqlarını maliyyələşdirməsini, onu silahlandırmağı dayandırmadığını da xatırlayırıq. İrəvan və Parisin, eləcə də ermənipərəst dairələrin ölkəmizin suverenliyinin tam bərpasına yol verməmək üçün hansı tələləri qurmağa çalışdıqları da yadımızdadır. Bunların heç birinin faydası olmadı. Sonda suda boğulanlar saman çöpündən yapışan təki, ermənilərin də Azərbaycanın Qarabağ bölgəsindən Ermənistana könüllü köçməsini təşkil etdilər. Azərbaycan vətəndaşlığını qəbul etmək şərti ilə ölkəmizin digər sakinlərinin sahib olduqları imtiyazlara razı olmadılar, getməyə üstünlük verdilər. Ermənilərin Qarabağdan Ermənistana köçməsi Azərbaycana düşmən olan qüvvələrin, o cümlədən, "miatsum" ideyaları ilə hələ də vidalaşmamış Hayastan iqtidarının, erməni kilsəsinin, diasporun və nəhayət, Cənubi Qafqazdakı geosiyasi dəyişikliklə barışmaq istəməyən bəzi "güclərin" əlində "dəstavüza" çevrildi. Həmin qüvvələrə sonradan Azərbaycanı "etnik təmizləmə"-də ittiham və öz şərtləri ilə gedənlərin geri qaytarılmasını tələb etmək üçün məhz ermənilərin köçməsi lazım idi.

Heç bir beynəlxalq təşkilat və ya dövlət terrorla mübarizə əməliyyatını "hərbi hücum", "etnik təmizləmə" kimi tanıya bilməz. Çünki Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir. Dövlət öz ərazisinə hücum edə bilməz. Üstəlik, əməliyyatın gedişində Paşinyan artıq neçənci dəfə Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdığını etiraf etdi.

Hazırda rəsmi Bakı İrəvanın sülh danışıqlarını pozmağa yönəlmiş növbəti təxribatına şahidlik edir. Aşkar görünən odur ki, Ermənistan və onun himayədarları yeni nəsillər arasında nifrət yaratmaq məqsədilə müəyyən "ideoloji proqram" hazırlamaq kimi dağıdıcı yol seçiblər. Yəni, bu o deməkdir ki, Azərbaycan hər cür təxribatlara hazır olmalıdır. Bunu haylarla qonşuluğun gətirdiyi fəsadlar və həyatın özü tələb edir. Klassiklərdən birinin dediyi kimi, sülh bir çox hallarda yalnız arzularda reallaşır.

*

"Bir il bundan əvvəl Azərbaycan Dağlıq Qarabağa (?) silahlı hücum edib və 100 mindən çox insanı məcburi köçkün vəziyyətinə salıb. Bununla da XXI əsrin tarixində ilk etnik təmizləmə (?) həyata keçirib". **Bunu Avropa Parlamentinin plenar iclasındakı çıxışında fransalı deputat, Avroparlamentin xarici əlaqələr komissiyasının təhlükəsizlik və müdafiə alt komitəsinin sədri Natali Luazo deyib.**

Həm ermənipərəst mövqeyi, həm də tipaj olaraq keçən əsrin 90-cı illərindəki Qalina Staravoytovaya bənzəyən Natali Luazo Aİ-nin rüşvətxor məmur və deputatları ilə tez-tez Ermənistana gəlir, sərhəddə şəkillər çəkdirir, Azərbaycanın ünvanına hədyanlar yağdırırdı. Bu, həmin Luazodur ki, 2023-cü ilin iyununda başının dəstəsi ilə Laçın sərhədində "pusquda durmuş" Aİ-nin missiyasının üzvləri, Zəngəzurda "Qarabağ köçkünləri" ilə görüşmüş, Laçın buraxılış məntəqəsinə beynəlxalq qüvvələrin yeridilməsini, bununla bağlı BMT-nin



təcili qətnaməsini tələb etmişdi.

İndi isə Azərbaycanın evsahibliyi edəcəyi COP29-un iştirakçılarına "ermənilərin "Dağlıq Qarabağa qayıtmaları, əsirlərin buraxılması" tələbi ilə rəsmi Bakıya çağırış etmələrini istəyir. O, hətta, bu tələbini Azərbaycanın Ermənistanla sülh sazişi imzalamadığı ilə əsaslandırır.

Reallıqla barışmaq, onu həzm etmək istəməyənlərin problemini başa düşürük. Anlaşılmayan odur ki, bütün cəbhələrdə uduzmuş və tam iflasa uğramış haylar, sanki, yüz il əvvəlin havası ilə nəfəs alır, letargik yuxudan ayılmaq istəmirlər.

"Biz göstərdik ki, güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz. Nə çoxqatlı müdafiə xətti, nə Ermənistan ordusunun coğrafi üstünlüyü, – çünki bütün təpələrdə onlar yerləşmişdi, – nə böyük dövlətlər, nə də Ermənistanı silahlandıran, onlara mənəvi və fiziki yardım göstərən dövlətlər. Heç kim!".

Bu sözləri Prezident İlham Əliyev Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşündə söyləyib. Bəli, bundan sonra heç kim bizimlə nə gücün dili ilə danışa, nə də bizi tutduğumuz yoldan döndərə bilər. Çünki güclü siyasi iradəyə söykənən Azərbaycanın inamla addımladığı bu yol ədalət və dürüstlükdən keçir.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Ermənilərin indi bacardıqları yeganə məşğuliyyət boş-boş çığırmaqdır. Reallıq ondan ibarətdir ki, üçtərəli bəyanata uyğun olaraq, Azərbaycan dəfələrlə Ermənistandan ordusunun qalıqlarını Qarabağdan geri çəkməsini tələb edirdi. Bunu etməyin əvəzinə, hoqqabazlıqla məşğul idilər. Guya, orada qalan özünümüdafiə polis qüvvələridir. Məgər özünümüdafiənin yüzlərlə tankı, BTR-i, BMP-si, artilleriya və reaktiv qurğuları olur? İnadkarlıq göstərənin cavabı bu cür olmalıydı. Azərbaycanın antiterror tədbirlərini minimum itikilərlə həyata keçirməsinə bütün dünya mat qalıb. Bəli, ordumuz əlində o boyda silah-sursatı olan qüvvəni bir günə təslimə məcbur elədi. Yalnız hərbi obyektlər vuruldu. Bu məsələdə Azərbaycana heç kəs irad tuta bilməz.

İsrail bir ilə yaxındır ki, Qəzzada hərbi əməliyyat aparır və dinc əhali də daxil olmaqla 40 mindən çox insan həlak olub. Amma biz bircə günə əməliyyatı yekunlaşdırdıq və separatçıları torpağımızdan qovduq. Uzatdığımız əli rədd edəndə, təbii ki, Azərbaycan antiterror tədbirini reallaşdırmağa məcbur oldu. O ki qaldı, mülki ermənilərin oradan çıxmasına, onların beyinlərini 30 ildən çox idi ki, azərbaycanlılarla birgə yaşamağın mümkünsüzlüyü nağılı ilə doldurmuşdular. Belə separatist düşüncə tərzi onların son aqibətini müəyyənləşdirdi. Həmin ermənilərə belə bir nağıl da danışmışdılar ki, Kosovodan da albanları çıxarmışdılar, amma sonra Amerika serbləri bombalamaqla geri qayıtmanı təmin etdi. Məhz belə xəyallarla yaşayan ermənilər Azərbaycanın da üstünə kiminsə yeriyəcəyini gözləyirdilər. Bu, baş vermədi və ola da bilməzdi.

Necə ki, vaxtilə Xorvatiya öz ərazisində yüksək muxtariyyata qane olmayan 600 minə yaxın serbi eyni üsulla – antiterror əməliyyatı ilə çıxardı. Sonradan geri qayıdan 100 mindən bir qədər çox serb Xorvatiya vətəndaşlığını qəbul edib, heç bir muxtar hüquqlara malik olmadan yaşayır. Axı, eyni variantı Azərbaycan da təklif etmişdi. Yox, bunlara ordumuzun, polisimizin, Azərbaycan hökumətinin olmadığı Qarabağ lazım idi. İndi üstümüzə yeriyən ermənipərəst dairələr isə heç nəyə nail ola bilməyəcəklər.

# Moskva – İrəvan "dueli" KTMT müstəvisində

## *Erməni baş nazirin bu barədə dedikləri*

**Baş nazir Nikol Paşinyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Ermənistanın suverenliyinə təhlükə olması ilə bağlı açıqlamaları sağlam düşüncəyə sığmır. Bunu IV Avrasiya Qadınlar Forumu çərçivəsində Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.**

N.Paşinyan bir neçə gün əvvəl bildirmişdi ki, rəsmi İrəvan KTMT-yə üzvlüyünü təkcə alyansın Ermənistanın təhlükəsizliyini təmin etmək üzrə öhdəliklərini yerinə yetirmədiyi üçün deyil, həm də qurumun özünün ölkənin təhlükəsizliyinə, gələcək mövcudluğuna, suverenliyinə və dövlətçiliyinə təhdid yaratdığına görə dondurub. Əslində, baş nazirin mövqeyi, ümumən, Ermənistan rəhbərliyinin anti-KTMT kursunda müəyyən yeniliyin olduğunu söyləməyə əsas verir. Əvvəlcə bu yeniliyə diqqət yetirək.

Məlum olduğu kimi, Ermənistan – KTMT münasibətlərindəki ziddiyyətlərin əsası 2022-ci ildə qoyulmuşdu. Həmin il noyabrın 23-də qurumun İrəvanda zirvə toplantısı keçirilmişdi. Paşinyan Rusiya Prezidenti Vladimir Putinin də qatıldığı toplantını anti-Azərbaycan motivləri üçün plasdarma çevirməyə cəhd göstərmişdi. Nikol ölkəsinin təşkilata rotasiya qaydasındakı sədrliyindən sui-istifadə yolu tutmuş, ciddi-cəhdlə çalışmışdı ki, qurum Azərbaycan – Ermənistan şərti sərhədində sentyabr ayında baş vermiş hərbi insidentə siyasi qiymət versin, Bakını işğalçı kimi göstərən bəyanat yaysın. Ancaq istəyinə nail ola bilməmiş, hətta KTMT-yə üzv bəzi dövlətlərin başçılarının sərt reaksiyası ilə də üzləşmişdi. Məsələn, Belarus Prezidenti Aleksandr Lukaşenko Paşinyana toplantı iştirakçıları olan ölkə rəhbərlərini "uşaq yerinə qoymamağı" məsləhət görmüş, onu Azərbaycanla danışıqlara və problemi həll etməyə dəvət etmişdi. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin mövqeyi isə daha konkret olmuşdu – Azərbaycan–Ermənistan sərhədlərinin delimitasiyası aparılmayıb və buna görə KTMT-nin məsuliyyət zonasını müəyyənləşdirmək mümkünsüzdür.



Bəli, 2022-ci ilin İrəvan sammitindən sonra KTMT-nin Ermənistan üzrə məsuliyyət zonasının qeyri-müəyyənliyinə dair tezis gündəmə gəldi. Ermənistanın hakimiyyət nümayəndələrinin həyasızlıqları isə bundan ibarətdir ki, onlar təşkilatın özünün həmin məsuliyyət zonalarını müəyyənləşdirməli olduğuna dair arqument səsləndirirlər. Başqa sözlə desək, KTMT həmin zonaları müəyyənləşdirməyincə, onunla münasibətlər yoluna qoyulmayacaq. Göründüyü kimi, bu yanaşmada da Zaxarovanın dili ilə desək, sağlam məntiq və düşüncə yoxdur, kifayət qədər, incə düşünülmüş bəhanə var.

Bəhanədən söz düşmüşkən, İrəvan sammiti gedişində Azərbaycan – Ermənistan şərti sərhədinə KTMT-nin müşahidəçilərinin göndərilməsi ilə bağlı məsələ də müzakirəyə çıxarılmışdı. Hətta, qurumun Xarici işlər nazirləri səviyyəsində müəyyən razılaşmalar əldə edilmişdi. Sonradan KTMT-nin nəzərdə tutulan missiyasının hərbi təyinatlı olacağı bildirilmişdi. Ancaq o da məlumdur ki, Paşinyan bundan boyun qaçırmış və Avropa İttifaqının mülki müşahidə missiyasına üstünlük vermişdi. Sözügedən missiyanın KTMT-nin İrəvanda keçirilmiş sammitindən bir ay sonra, yəni dekabrda Ermənistana yerləşdirilməsinə başlanmışdı və hələ də fəaliyyətdədir. Belə nəticəyə gəlirik ki, Ermənistanın KTMT ilə ziddiyyətləri həm də ölkənin Qərbə yaxınlaşmaq əzminin təzahürü kimi meydana çıxmış hadisədir. Əlbəttə, buna əzm demək mümkündürsə...

Qeyd edək ki, İrəvan sammitindən sonra Paşinyan hakimiyyəti KTMT-ni boykot yolunu tutdu. Ermənistan nümayəndələri təşkilatın ayrı-ayrı strukturlarının iclaslarına qatılmaqdan imtina etdilər və mövqelərini davamlı şəkildə ictimailəşdirərək, Rusiya tərəfində qıcıq yaratmağa çalışdılar. 2024-cü ildən isə N.Paşinyan ölkəsinin anti-KTMT kursundakı boz rəng çalarlarını bir qədər də tündləşdirdi. Nikol və komandasının üzvləri, əvvəla, Ermənistanın təşkilatdakı üzvlüyünü dondurduğunu bəyan etdilər, ikincisi, rəsmi İrəvanın qurumdan ayrılmasının mümkünlüyünə dair mesajlar səsləndirməyə başladılar. İndiki, yəni yuxarıda haqqında söz açdığımız yenilik isə Paşinyanın KTMT-ni bilavasitə ölkənin ərazi bütövlüyü və suverenliyi üçün təhlükə görməsi ilə bağlıdır. Ancaq "yeniliyi" gözləməyə dəyərdi. Çünki onun işartıları özünü göstərirdi.

Məlum olduğu kimi, rəsmi İrəvan son günlər ən müxtəlif platformalarda Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığını tirajlamaqla məşğuldur. O da məlumdur ki, bu klişe ölkənin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan boyun qaçırmaq, konkret olaraq, sənədin 9-ci bəndini icrasından yayınmaq istəklərindən qaynaqlanır. Paşinyan və komandası Qərbin təhriki ilə Naxçıvana maneəsiz, yəni heç bir gömrük və sərhəd nəzarəti olmayan yolu təmin etmir, ən əsası isə 9-cu bəndin həmin yola Rusiya Federal Təhlükəsizlik Xidmətinin nəzarət müddəasını heçə sayır. KTMT-nin bu ritorikaya daxil edilməsi isə rəsmi İrəvanın destruktiv mövqeyini daha da möhkəmləndirmək vasitəsidir. Hədəfin Rusiya olduğu gün kimi aydındır.

Bir halda ki, Moskvanın hakim rol oynadığı təşkilat Ermənistanın ərazi bütövlüyünə və təhlükəsizliyinə təhdid yaradır, deməli, Rusiyanın özünün də Naxçıvan yolunda təhlükəsizliyin təminatı ilə bağlı zəmanətinə etibar edilməməlidir. Məntiq budur və məsələnin mahiyyətini Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bilməmiş deyil. Xanım Zaxarova məhz buna görə son günlər nümayiş etdirdiyi sərt ritorikanı yenidən işə salır. Daha doğrusu, sərtliyini sırf bu məsələ müstəvisində də ortaya qoyur.

Rusiya XİN-in sözçüsü Ermənistanın üçtərəfli bəyanatın icrasından boyun qaçırması ilə bağlı tez-tez onu bildirir ki, rəsmi İrəvan sənəddən imzasını geri çəkməyib. Bu, əslində, erməni rəhbərliyini qıcıqlandırmaq və ələ salmaqdır. Yəni, üçtərəfli Bəyanatdan rəsmən imtina edə bilmirsənsə, niyə boş-boş danışırsan? Zaxarova eyni məntiqi yenə də işə salır və deyir: "Bir halda ki, KTMT Ermənistanın ərazi bütövlüyü və suverenliyi kimi vacib məsələ üçün təhdid yaradırsa, nəyə görə ölkə qurumdan uzaqlaşdığını bəyan etməyib".

Rusiya rəsmisi fikrinə davam edərək onu da deyib ki, Ermənistan KTMT-də qalırsa, deməli, strukturda hansısa məqsədəuyğunluq görür. Deməli, bir daha sübut olunur ki, sağlam olmayan düşüncə Paşinyanın bildirdikləridir. Ancaq Nikolun KTMT və Ermənistana təhdid mövzusunu gündəmə gətirməsi mahiyyətcə yenilik olsa da, baş nazirin oxşar xüsusda "təhlükə axtarışlarına" baş vurması ilk dəfə deyil. Onun məhz indi əsalədən söz açması da təsadüf sayıla bilməz.

Yada salaq ki, Azərbaycanın 2023-cü ilin sentyabrında Qarabağda lokal xarakterli antiterror tədbirləri keçirməsindən və uğur qazanmasından sonra, N.Paşinyan ölkəsinin duruma müdaxiləsinin olmayacağından danışmış və sözügedən müdaxilənin Ermənistan üçün tələ ola biləcəyinə eyham vurmuşdu. Ardınca isə bildirmişdi ki, KTMT-yə üzv bəzi ölkələr Ermənistanda dövlət çevrilişi reallaşdırmaq istəyirdilər, lakin məqsədlərinə çata bilmədilər. Nikol belə deməklə, əslində, erməni avantürizminin Qarabağ rüsvayçılığına görə Rusiyanı günahlandırmaq yolu tutmuşdu. Görünür, üzərindən bir il keçdikdən sonra Paşinyan yenidən eyni məntiqi gündəmə gətirmək yolu tutur. Amma bu dəfə daha konkret şəkildə. Çox güman ki, Ermənistan rəhbərliyi növbəti mərhələdə Zaxarovanın dediyi yolla getməyin, yəni KTMT-dən çıxmağın mümkün olub-olmadığını daha əmin şəkildə yoxlayacaq.

Hərçənd, rəsmi İrəvanın mövcud istiqamətdə qəti qərar verəcəyini söyləmək mümkünsüzdür. Həm də ona görə ki, Ermənistan hakimiyyəti Rusiyanın əks addımlarının nədən ibarət olacağını tam müəyyənləşdirməyib. Daha doğrusu, hələlik həmin addımlardan etibarlı şəkildə sığortalanmaq iqtidarında deyil. Nəzərə alaq ki, KTMT-dən rəsmən ayrılma iqtisadiyyatı tamamilə Rusiyadan asılı Ermənistan üçün başqa fəsadlar da törədə bilər. Elə bu mənada da Zaxarovanın Paşinyanın dediklərini sağlam düşüncədən uzaq adlandırmasında məntiq var.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İsveçrə Parlamentində "erməni sorğusu"

**İsveçrə deyəndə, ilk növbədə, göz önünə yaşıllıqlara bürünmüş dərələr, təpələr, göz oxşayan çəmənliklər və insanın ruhunu sakitləşdirən mavi göllər gəlir. İsveçrədən danışanda xoşbəxt cəmiyyət, yüksək sosial rifah səviyyəsi və insanlar arasında səmimi bir ortamı xatırlayırsan. Hər yerdə olduğu kimi, orada da dövlət, ədalətə söykənən qanunlar və ictimai marağın mərkəzində dayanan insan haqları var.**



İsveçrə Avropa İttifaqına daxil olmasa da, beynəlxalq siyasətini Avropa ailəsinin üzvü olan bir dövlət kimi aparır. Siyasət olan yerdə isə istəsən də, istəməsən də əvvəl-axır bir əxlaqsızlıqla üzləşəcəksən.

Belə əxlaqsız bir addım bu həftə İsveçrə parlamentində atılıb. Parlamentdən hökumətə daxil olmuş bir müraciətdə İsveçrə dövlətinin tezliklə Azərbaycanda keçiriləcək COP29 konfransına münasibəti sorğulanıb. Amma elə şəkildə sorğulanıb ki, bu müraciətin mətninin ermənilər tərəfindən yazılıb hazırlanması və erməni lobbisindən alınan yüksək qonorar müqabilində ortaya çıxarılması qətiyyən şübhə doğurmur.

Sorğu müəllifləri öz müraciətlərinə keçən ilin bu günündə "... Azərbaycanın Dağlıq Qarabağa hücumu və min illərlə orada yaşayan erməni əhalini etnik təmizləməyə məruz qoyması" ilə başlayır. Daha sonra, guya, Qarabağda yaşamış ermənilərin 10 ay ərzində mühasirədə saxlanması, onların ərzaqdan, tibbi xidmətdən və dərman preparatlarından məhrum edilməsi, onlara fiziki və psixoloji təzyiq göstərilməsi və hətta Qarabağı tərk etdikləri cəmi 1 sutka ərzində çoxsaylı hamilə qadınların öz uşaqlarını itirməsi haqqında saxta iddialar irəli sürülür. İsveçrəli deputatlar Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru, hazırda isə yüksək məbləğdə rüşvət müqabilində erməni lobbisinə nökərçilik etməyə girişmiş Luis Moreno Okampoya istinad edərək bütün bunların Azərbaycan tərəfindən törədilmiş "etnik təmizləmə və ya soyqırımı" olduğunu iddia edirlər. Sorğuya öz imzasını atmış 16 parlament üzvü həmin ərazilərdə, guya, ermənilərə məxsus olmuş tarixi-mədəni irsin məhv edildiyini və eləcə də 23 erməninin hələ də Azərbaycan tərəfində girov saxlanıldığını iddia edir.

Lakin bu müraciətdə 30 illik işğal müddətində 1 milyona yaxın azərbaycanlının ölümdən xilas olmaq üçün qaçqın düşməsindən, minlərlə azərbaycanlının qətlə yetirilməsindən, onların insan hüquqlarından və eləcə də bu, 23 "yazıq" ermənin hansı qanlı cinayətlər törətdiyindən qətiyyən söz açılmır. Əksinə, "... Azərbaycana qarşı sanksiyalar tətbiq etmək əvəzinə BMT-nin 29-cu İqlim Dəyişikliyi Konfransının bu ölkədə keçirilməsindən" məyusluğunu bildirən erməni lobbiçiləri İsveçrə Federal hökumətindən aşağıdakı suallara cavab verilməsini tələb edirlər:

*1. İsveçrə Dağlıq Qarabağ ermənilərinin öz ata-baba yerlərinə qayıtmaq və öz müqəddəratını təyin etmək hüququnu tanıyırmı?*

*2. COP29 konfransında iştirak edəcək İsveçrə nümayəndə heyətinin Bakıda olarkən etnik təmizləmə və ermənilərin qayıtmaq hüququ ilə bağlı məsələ qaldırmaq niyyəti varmı?*

Əlbəttə, belə bir sorğunun mətni ilə tanış olanda İsveçrə haqqındakı bütün xoş təsəvvürlər dərhal yoxa çıxır. İstər-istəməz sual yaranır: çox güman ki, heç vaxt Azərbaycanda olmamış və əminəm ki, hətta "Dağlıq Qarabağ" adlandırdıqları ərazini xəritədə belə göstərə bilməyən İsveçrəli deputatları müstəqil və suveren bir dövlətə qarşı iftiralarla dolu bir sorğunu öz hökumətinə ünvanlamağa vadar edən nədir?

Uzun illər ərzində Avropanın ayrı-ayrı ölkələrinin parlamentlərində və hətta Avropa Parlamentinin özündə dəfələrlə qarşılaşdığımız bu kimi hadisələrin təhlili göstərir ki, bu yalnız üç halda baş verir. **Birincisi,** Avropanın erməni lobbi təşkilatlarından alınan külli miqdarda rüşvət müqabilində. Belələrinin sayı kifayət qədər çoxdur. Son illərdə Avropa Parlamentində aşkarlanan və hətta parlamentin vitse-prezidenti səviyyəsində baş vermiş korrupsiya hallarını xatırlamaq kifayətdir.

**İkincisi,** deputatın ailə üzvlərindən biri və əsasən də arvadı və ya gəlini erməni əsilli olduqda; məsələn, ABŞ konqresmeni Robert Menendes və ya Lüksemburq deputatı Frank Engel hallarında olduğu kimi.

**Üçüncüsü** isə həmin ölkənin hökumətindən parlamentə Azərbaycan Respublikasına qarşı belə bir qərəzli sifariş daxil olduqda; məsələn, Fransada Emanuel Makronun vaxtaşırı ölkə parlamentinə göndərdiyi ağılsız "Qətnamə" sifarişləri kimi.

Bütün hallarda heç bir fakta əsaslanmayan iftira və böhtanlarla dolu bir sorğunu orada irəli sürülən iddiaları araşdırmadan və onun saxta olub-olmadığına məhəl qoymadan və hətta bu iddiaların saxta olduğunu bildikləri halda hazır vəziyyətdə əllərinə verilmiş sorğu mətnini hökumətə ünvanlayan deputatları yalnız əxlaqsız adlandırmaq olar. Beləsinə başqa ad qoymaq çox çətindir.

Əminəm ki, İsveçrə seçiciləri bu deputatların federal parlamentə üzv seçilməsinə səs verəndə onların qarşısında erməni lobbizminə xidmət etmək kimi bir vəzifə qoymayıblar. Hər halda onlar öz deputatlarından məhz öz vətəndaşlarının maraqlarının qorunmasını istəyə bilərdilər. Lakin görünür ki, Avropa erməni təşkilatlarının təklif etdiyi qonorar o qədər cəlbedici olub ki, bu deputatlar ondan imtina etməyə özlərində güc tapa bilməyiblər.

Bizim üçünsə bu gün daha maraqlı olan məsələ İsveçrə Federal hökumətinin bu sorğuya verəcəyi cavabdır. Bəllidir ki, İsveçrə ilə Azərbaycan arasında hər iki ölkənin milli maraqlarını qane edən səmimi və işgüzar əməkdaşlıq mühiti mövcuddur. Belə bir vəziyyətdə əsas sual budur ki, COP29 konfransında iştirak etmək üçün ölkəmizə gələcək İsveçrə nümayəndə heyəti erməni lobbisinə muzdlu nökərçilik edən əxlaqsız bir deputatın tələbini nəzərə alacaq yoxsa bütün dünyaya məlum olan Qarabağ həqiqətlərinə istinad edərək Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa üstünlük verəcək? Əlbəttə, bu, onların seçimi olacaq. Bizim isə gözləntimiz ondan ibarətdir ki, İsveçrə hökumətinin bu bədnam sorğuya cavab mətnində və eləcə də İsveçrə nümayəndə heyətinin COP29 çərçivəsindəki davranışlarında biz İsveçrənin prinsipial və ədalətli yanaşmasının şahidi olacağıq. Əks təqdirdə, Azərbaycan dövlətinin də öz siyasətini mövcud reallıqlara uyğunlaşdırması qaçılmaz olacaq.

**Cavanşir FEYZİYEV,**
**Milli Məclisin deputatı**

## Replika

**Biz Konstantin Fyodoroviçin hansı yuvanın quşu olduğunu yaxşı bilirik. Onun alovlu ermənipərəst çıxışlarına, populist bəyanatlarına öyrəncəliyik. Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Konstantin Zatulinin nəyə görə və nəyin müqabilində mütəmadi olaraq Azərbaycana və onun ərazisinə qarşı sərt bəyanatlar verməsini izah etməyə ehtiyac görmürük. Hay Lazaryanın soyadından qondardığı "Lazarev klubu"nun bayraqdarına çevrilmiş Zatulinin rəsmi Moskvanın belə xoşuna gəlməyən avantürist bəyanatları, cəmiyyət tərəfindən də dəfələrlə qınanıb. Amma, o, erməni lobbisinə xidmət etməyi, onların istəyinə uyğun olaraq, anti-Azərbaycan bəyanatlar səsləndirməyi çox sevir.**

# "Qəhrəman" haypərəst

## *Zatulin indi də özünü ermənilərin "xaç atası" rolunda sınayır*



Bu dəfə "erməni xalqının qəhrəmanlıq mübarizəsi"ndən dəm vuran Zatulin hayların baş nazirini bu "tarixi salnaməni" unutdurmağa çalışmaqda ittiham edir.

Dövlət Dumasının yetkilisinin sözlərinə görə, Paşinyan erməni xalqını inandırmaq istəyir ki, hayların dövlətçiliyinin olmadığı vaxtlarda onları birləşdirən və qoruyub saxlayan Qriqorian kilsəsinin "müqəddəs missiyası" Bizans imperiyası dövründən bəri xarici agent rolunu oynayıb.

Buna görə Paşinyanın ünvanına təhqiramiz ifadələr işlətməkdən belə çəkinməyən Dumanın komitə sədrinin müavini, deyəsən, özünü ermənilərin "xaç atası" rolunda sınayır. Uzun müddət Dağlıq Qarabağdakı separatçı rejimin ideoloji dəstəkçisi funksiyasını yerinə yetirən Zatulin ayın əvvəlində İrəvanda bir neçə separatçı-terrorçunun cəmləşdiyi qanundankənar qurumun "yubiley tədbirinə" "təbrik məktubu" göndərmişdi.

Xatırlatmağa dəyər ki, 2 sentyabr tarixini daşnak-separatçılar Xankəndidən süpürüb atdığımız həmin qondarma qurumun "respublika günü" kimi qeyd edirlər. 2020-ci ildə 44 günlük Vətən müharibəsinə qədər onlar həmin "tarixi günü" yüksək əhvali-ruhiyyədə, təmtaraqla bayram edirdilər. Fəqət dörd il bundan əvvəl Azərbaycan Ordusu onlara heç vaxt unutmayacaqları elə bir dərs keçdi ki, indi əvvəlki ildönümləri pafosundan əsər-əlamət də qalmayıb.

İntəhası, belə görünür ki, cənab Zatulin özünü Araik Arutunyandan daha çox erməni hiss etdiyinə görə, yaxud da Rusiyadakı erməni lobbisindən babat qonorar qopardığı üçün hayların Qriqorian kilsəsinin də "təəssübünü" çəkməyə başlayıb. Bəli, cənab Konstantin Zatulinin nəyin müqabilində illərdir erməniləri cani-dildən müdafiə etdiyi heç kimə sirr deyil. İndi, sadəcə olaraq, onun aşıb-daşan hay sevgisi təkcə ermənilərə və Ermənistana deyil, həm də, özünün dediyi kimi, tarix boyu milləti "birləşdirən və hifz edən" kilsənin də müdafiəsinə qalxmağa, onu baş nazirin hücumlarından qorumağa sövq edir.

Zatulinin yeni təəssübkeşliyi maraqlı ehtimal və fərziyyələrə yol açır. Əgər, o, sabah, ya birisigün Ermənistana gəlib, anti-Paşinyançı keşiş Baqrat Qalstanyanın yanında dayansa, heç təəccüblənməyin. Çünki onun qriqorianlığa qəfil məhəbbətinin arxasında Paşinyanın istefasını tələb edən kilsə müridlərinə siyasi-ideoloji dəstəyin dayandığı istisna edilmir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Alman deputatın yalanları bitib-tükənmir

**Azərbaycana qarşı hər zaman qərəzli mövqeyi ilə seçilən Almaniya Bundestaqının Xarici əlaqələr komitəsinin rəhbəri Mixael Rot yenidən çox sevdiyi Ermənistana səfər edib. Onun budəfəki səfəri Azərbaycan Ordusunun Qarabağ iqtisadi rayonunda keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin birinci ildönümü günlərinə təsadüf edir. Əlbəttə, səfər üçün bu tarixin seçilməsi qətiyyən təsadüfi sayıla bilməz. Ermənilərə canıyananlıq edən, onların əsassız iddialarına qahmar çıxan deputat haylar üçün hüznlü günlərdə onların yanında olmaq, necə deyərlər, dərdlərini bölüşmək yolunu tutub.**



Təbii ki, alman parlamentarinin indiki səfəri də ölkəmizin əleyhinə açıqlamalarla "zəngin" oldu. O, İrəvanda jurnalistlərlə görüşündə özünə aid olmayan məsələlər barədə gen-bol danışıb. Deyib ki, onun üçün ağır olsa da, ermənilərin Qarabağa qayıtması üçün artıq heç bir imkan görmür. "Biz insanlara nəyinsə dəyişəcəyi ilə bağlı ümid verə bilmərik. Çünki buna zəmanət vermək olmur. Zəmanət verə bilmədiyimiz şeyi insanlara vəd edə bilmərik" – deyən parlamentari Qarabağdan hayların bir il öncə separatçı "qlavar"ların və xarici havadarların fitnələrinə uyaraq, könüllü köç etməsini "etnik təmizləmə və erməni xalqının tarixində faciəli səhifələrdən biri" adlandırıb. Onun sözlərinə görə, bu, həm Ermənistan, həm də Qarabağ ermənilərinə əzab-əziyyət verib: "Azərbaycan bunu inkar edir, lakin biz o dəhşətli hadisələri unutmamışıq və biz Almaniyada Ermənistanın dostları kimi regionda davamlı sülhün əldə olunmasına töhfə verməyə çalışacağıq. Keçən il olduğu kimi, mən Qarabağdan olan qaçqınlara (?) baş çəkdim. Biz onlara dəstək göstəririk".

M.Rot Ermənistanın çətin qonşularla (?) əhatə olunduğunu deyib. Əlavə edib ki, bu, onun üçün böyük sınaqdır. Daha sonra alman deputat həyasızlıq edərək "Ermənistanın ən çətin və təcavüzkar qonşusu"nun Azərbaycan olduğunu bildirib: "Biz başa düşürük ki, ölkəyə qarşı təhqirlərdən sonra Azərbaycanla danışıqlar masasına oturmaq çətindir. Lakin Almaniya regionda sülhün vacibliyini vurğulayaraq, Ermənistanı dəstəkləməyə çalışacaq. Regionda sabitlik Ermənistanın ərazi bütövlüyünü təmin edən məcburi qüvvəyə malik sülh müqaviləsinə əsaslanmalıdır".

Almaniyalı deputat ümid etdiyini bildirib ki, Azərbaycan regionda sülh və sabitlik üçün müqavilə bazası yaratmaq üçün çeviklik nümayiş etdirəcək. Onun toxunduğu növbəti məsələ Bakıda saxlanılan separatçı rejimin keçmiş başçıları ilə bağlı olub. Bütün ermənipərəstlər kimi o da xunta rejiminin cinayətkar rəhbərlərini "ermənilərin Azərbaycan tərəfindən girov götürülməsi" adlandırıb: "Mən dəfələrlə erməni girovların azad edilməsi ilə bağlı çıxış etmişəm və bildirmişəm ki, bu, mümkün qədər tez baş verməlidir".

M.Rot regionda nəqliyyat kommunikasiyalarının açılmasına qarşı da çıxıb və bunu "qondarma dəhliz" adlandırıb. Deyib ki, dəhlizin keçəcəyi yer Ermənistan ərazisi olub və belədir. Bu məsələyə son qoyula bilər. O, bunu sülh prosesinin çox mühüm, həssas və hiss olunan bəndi adlandırıb: "Bizim üçün Ermənistanın mövqeyi göz önündədir. Bu da ondan ibarətdir ki, İrəvan özü bu yolda (Zəngəzur dəhlizi nəzərdə tutulur–S.H.) təhlükəsiz və sərbəst hərəkəti təmin etməyə hazırdır, lakin bu ərazinin Ermənistanın suveren ərazisi olaraq qalması vacibdir. Bu, hər şeyi deyir".

Bundestaqın komitə sədri dünən Ermənistan baş naziri Nikol Paşinyanla da görüşüb. "Armenpress"in məlumatına görə, görüşdən sonra "X" platformasındakı hesabında paylaşım edən M.Rot Azərbaycanla sülh müqaviləsi üzərində işləməkdə göstərdiyi "cəsarət və qətiyyətə" görə Paşinyana təşəkkür edib. Deputat Rusiyanın da, necə deyərlər, bostanına daş atıb. Bununla da Cənubi Qafqazda sülh və sabitliyə imkan verməkdə maraqlı olmadıqlarını ortaya qoyub: "Baş nazir Paşinyan Rusiya imperializminə qarşıdır və Azərbaycanla hər iki ölkənin ərazi bütövlüyünü təmin edəcək sülh müqaviləsi üzərində çox çalışır. Demokratiya və azadlığın təhlükəsizliyə ehtiyacı var və Avropa İttifaqı, nəhayət, Ermənistan və Cənubi Qafqaz üçün daha çox işlər görməlidir".

Qeyd edək ki, M.Rot ötən ilin oktyabrında da İrəvana səfər etmişdi. O, həmin günlərdə sosial şəbəkədə çoxmənalı paylaşım etmişdi. "Erməni sevgisinin dozasını" bir qədər də artıran Rot hayları ölkələri uğrunda bayraq qaldırmağa çağırmışdı: "Gənc demokratiya (Paşinyanın rəhbərliyi dövründəki Ermənistanı nəzərdə tutur–S.H.), sülh və ərazi bütövlüyü uğrunda bayraq qaldırın!" Alman deputat İrəvanda N.Paşinyan, parlamentin sədri Alen Simonyan və erməni həmkarı Sarkis Xandanyanla görüşmüşdü.

Onun ermənilərin Qarabağa qayıdışı barədə fikirlərinə dair qeyd etmək lazımdır ki, rəsmi Bakı bununla bağlı mövqeyini ilk gündən bəyan edib və bu mövqedə hansısa dəyişiklik yoxdur. Ölkəmizin mövqeninin nədən ibarət olduğunu təkrar yazmaq niyyətində deyilik. Çünki dəfələrlə diqqətə çatdırılmış mövqe yəqin ki, cənab Rota da məlumdur. Ən azı onun Bundestaqın Xarici əlaqələr komitəsinin rəhbəri vəzifəsini daşıması bu barədə məlumatlı olmasını şərtləndirir. Əminik ki, hayların qayıdışı ilə bağlı Bakının mövqeyi ilə alman deputat ilk gündən tanışdır. Amma indi özünü elə aparır ki, sanki hər şeydən xəbərsizdir. Əgər ermənilər Azərbaycan vətəndaşlığını qəbul edəcəklərsə, qanunlarımıza hörmətlə yanaşacaqlarsa, bir sözlə ölkəmizin normal, loyal vətəndaşları olacaqlarsa, onların geri qayıtması da mümkün ola bilər. Bu şərtlər daxilində vətəndaşlığı qəbul edən erməni əsilli şəxslərin təhlükəsizliyinə digər Azərbaycan vətəndaşları kimi zəmanət veriləcəyi də əzəl gündən bəyan edilib.

Əlbəttə, qayıdıb-qayıtmamaq onların öz işidir. Biz heç kəsə minnətçi düşəsi deyilik. Sadəcə, hər şeyi öz adı ilə çağırmaq lazımdır. Əslində, ermənilərin Qarabağa qayıdışına imkan verməyən elə yazımızın girişində qeyd etdiyimiz kimi, Qərbdəki müəyyən hay havadarları oldu. Onların Paşinyan hökumətinə və Qarabağdakı separatçılara bölgədən əhalinin çıxarılması ilə bağlı verdikləri göstəriş nəticəsində region tez bir zamanda boşaldıldı. Səbəb də sonradan Azərbaycana təzyiq göstərmək, ölkəmizə qarşı sanksiyalar qəbul etmək idi. Məhz onların əhali arasında yaratdıqları təşviş, benzin almaq üçün yaranan basabas Xankəndi yaxınlığında yanacaqdoldurma məntəqəsində partlayışa, sonra isə yanğına səbəb oldu. Nəticədə xeyli erməni həyatını itirdi. Bütün bunlar M.Rot sayaq özünü ermənilərin təəssübkeşi kimi göstərənlərin, necə deyərlər, özfəaliyyətinin nəticəsi idi. İndi isə onlar öz suçlarını etiraf etmək əvəzinə, bizi ittiham etmək yolunu tutublar.

Deputatın Ermənistanın çətin qonşularla əhatə olunmasına dair fikirlərinə gəldikdə isə qeyd etmək lazımdır ki, əslində, ən çətin qonşu elə Hayastanın özüdür. Ermənistanın təkcə Azərbaycan və Türkiyəyə qarşı deyil, Gürcüstan və İrana qarşı da ərazi iddiaları var. İrəvan ötən əsrin 80-ci illərinin sonlarından Azərbaycana qarşı ərazi iddialarını işğalçı müharibəyə çevirdi. Onların "növbəti ünvanı" Türkiyə olmalı idi. Heç də təsadüfi deyil ki, ölkənin üçüncü prezidenti – Xocalı soyqırımının birbaşa iştirakçısı Serj Sarkisyan hələ 2010-cu ildə Ermənistandakı bayram tədbirlərinin birində erməni gənclərə müraciətində demişdi: "Bizim nəsil Qarabağı azad etdi, sizin də borcunuzdur ki, Araratı (Türkiyə ərazisindəki Ağrı dağı) bütünlüklə ərazimizə daxil edəsiniz". Gürcüstanın Cavaxetiya bölgəsində yaşayan ermənilərin də orada separatçılıqla məşğul olduqları danılmaz faktdır. Bu baxımdan alman deputatın yaddaşını təzələməsinə, sözlərinə diqqət etməsinə ehtiyac var.

M.Rotun Azərbaycanın regionda sülh və sabitlik üçün müqavilə bazası yaratmaq üçün çeviklik göstərəcəyinə ümid etməsinə dair fikirləri də bizə yox, Ermənistana ünvanlanmalıdır. Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra Ermənistana sülh və dövlətlərarası münasibətlərin qurulmasına dair saziş layihəsini təqdim edib. İrəvan ötən 3 il ərzində müxtəlif bəhanələrlə prosesi uzadır. İndi isə sülhə əngəl olan əsas məsələni – konstitusiya dəyişikliyini həll etmək istəmir. Yaxşı olar ki, M.Rot bu kimi məsələhətləri rəsmi İrəvana versin.

Xunta rejiminin sabiq rəhbərlərinin cinayət məsuliyyətinə cəlb edilməsini Almaniya vətəndaşı olan Mixail Rot tam təbii qarşılamalıdır. Qarabağdakı separatçı "qlavarlar"ın məğlub olduqdan sonra mühakimə edilmələri nasist Almaniyasının İkinci dünya müharibəsindəki məğlubiyyətindən sonra onun müharibə cinayətləri törətmiş rəhbərlərinin mühakimə olunmalarına çox bənzəyir. Bu mənada bu gün baş verənlər cənab Rot üçün, əslində, yad mənzərə olmamalıdır.

Onun ölkəmizi təcavüzkarlıqda ittiham etməsi isə həyasızlığın son həddidir. Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan ordusu tərəfindən işğal olunduğunu və bu işğalın 30 ilə yaxın davam etdiyini dünyada az qala hamı bilir. Bununla bağlı BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsi var. Bunu bilərək belə fikirlər səsləndirmək özünü gülünc vəziyyətə qoymağa, olan-qalan hörməti də itirməyə və qeyri-ciddi siyasətçi imici qazanmağa xidmət edir. Əgər Mixail Rotun bütün fəaliyyəti buna hesablanıbsa, onu təbrik etmək olar. Artıq istədiyi nəticəni əldə edib.

***Səxavət HƏMİD***
***XQ***

# Ortaq əlifbadan – ortaq universitetə

II MƏQALƏ

**Məndə sığar iki cahan, mən bu cahana sığmazam.**

**NƏSİMİ**

## Təşkilatlanmanın iki bəndi

Nəhayət, əlifba da daxil olmaqla, türk dövlətlərinin mədəni əlaqələrinin inkişafı baxımından son dərəcə əhəmiyyətli olan təşkilatlanma prosesi 2009-cu ildə Naxçıvanda yeni səviyyəyə keçdi. "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"-nin 29 və 30-cu bəndlərində yazılmışdır: “TÜRKSOY-un Türk dünyasının ümumi dəyərlərinin müəyyən edilməsi, inkişafı, beynəlxalq səviyyədə yayılması və populyarlaşdırılmasında vacib rol oynadığını vurğuladılar, eləcə də onun türkdilli ölkələr arasında mədəni əlaqələrin dərinləşməsinə töhfəsini qiymətləndirdilər. Bununla əlaqədar, onlar türkdilli ölkələrin xalqlarının dil, mədəniyyət və mənəvi dəyərlərinin ümumiliyinə əsaslanan əlaqələrin və əməkdaşlığın daha da möhkəmləndirilməsində TÜRKSOY-un əhəmiyyətini qeyd etdilər”; “Dünya sivilizasiyasının inkişafına əhəmiyyətli töhfə vermiş zəngin türk




mədəni irsinin qorunması və dəstəklənməsi üzrə TÜRKSOY Fondunun yaradılması barədə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsünü yekdilliklə dəstəklədilər. TÜRKSOY Fondunun yaradılması və fəaliyyəti ilə bağlı təşkilati məsələlərin həlli tərəflərin hökumətlərinə həvalə olunur”.

Bu, olduqca əhəmiyyətli bir addım idi. Çünki türk dövlətləri tarixində ilk dəfə olaraq dil, əlifba, mədəniyyət məsələlərində təşkilati formada əməkdaşlığa qərar verirdilər. Bu o demək idi ki, etnik eyniliyi və mədəni ortaqlığın ümumi soydan gələn ortaq dəyərlərini sivil müstəvidə konkret nəticəverici əməkdaşlıq səviyyəsinə transfer etməkdə qərarlıdırlar. Təbii ki, burada fərqli fikirlər ola bilər, qarşıya həlli asan olmayan məsələlər çıxar. Lakin ana xətt kimi türk xalqlarının müasir tələblərə uyğun olan ortaq mənəvi, mədəni, əxlaqi və digər dəyərləri məqsədyönlü şəkildə müəyyən etməyə feili olaraq başlamaları çox əlamətdardır.

Burada Naxçıvan ortaq türk sinerjisinin strateji mənasını da vurğulamaq lazımdır.

Birincisi, türk xalqlarının ortaq fəaliyyəti yollarını tamamilə mədəni, mənəvi, əxlaqi, ideoloji və demokratik dövlətçilik kontekstinə yerləşdirmək istiqamətində vacib addım atılırdı.

İkincisi, prosesin düşünülmüş və mərhələli aparılması yanaşmanın məntiqindən aydın görünürdü. Bu da “emosional qardaşlığa” deyil, çağdaş dövrün mədəni, mənəvi, siyasi, geosiyasi, ideoloji və hüquqi şərtlərinə uyğun birləşməyi təşviq edir.

Üçüncüsü, bu cür yanaşma Türk xalqlarının təşkilatlanmasını “böyük qardaş-kiçik qardaş” dixotomiyası çərçivəsindən çıxarır. Yəni türklərin birləşməsi geniş dünyəvi kriteriyalar əsasında hüquqi müstəvidə bərabərlik təməlində baş verir.

Əlbəttə, Naxçıvan sənədinin Ortaq Türk Əlifbası kontekstində təhlilini daha da genişlndirmək olar. Ancaq burada həmin konteksdə Ortaq əlifbadan ortaq ali təhsilə keçidin fəlsəfi məqamları üzərində dayanaq.

## Ortaq əlifbanın öyrədilməsi

Mədəniyyət elə bir sahədir ki, onun nəzəri olaraq qalmasının faydası yoxdur. Mədəniyyət yalnız həyata keçəndə mədəniyyət olur, öz funksiyasını yerinə yetirə bilir. Ortaq əlifba bir ideya, məqsəd, qrafika sistemi kimi rəmz statusunda, əlbəttə, çox əhəmiyyətlidir! Ancaq, məncə, əsas iş bundan sonra başlayır. O cümlədən, bu əlifbanı nə zaman, necə və hansı səviyyədə öyrətməklə konkret tətbiqi zamanının uyğunluğu çox vacibdir. Şübhə yoxdur ki, bununla bağlı müzakirələr aparılacaq, həmin prosesə aidiyyatı olan çox dəyərli ziyalılarımız düzgün yol müəyyən edəcəklər (bəlkə də artıq müəyyən edilmişdir, lakin cəmiyyətin informasiyası yoxdur).

Əgər tədrisin fəlsəfəsi prizmasında məsələyə baxsaq, yeni əlifbanın yalnız qrafika sistemi deyil, həm də məzmun, məna, məqsəd və strateji proqnoz obyekti olaraq izah edilməsi vacibdir. İndi dünyada tədrisin səmərəli təşkili məsələsi ən aktual sosial-mədəni, elmi və təhsil faktoru kimi diqqətdədir. Çünki təhsilin nəticə baxımından səmərəli olmasının təməlində tədris dayanır. Yen əlifbanı necə öyrətmək olar ki, insanlar onu öz daxili mənəvi, mədəni, intellektual və feili tələbatları kimi qəbul



etsinlər. Bu prosesi ardıcıl olaraq kiçik yaşlı məktəblilərdən başlamaqla aparmaq səmərə verərmi? Və ya səmərə verməsi üçün hansı pedaqoji, metodiki, elmi-nəzəri və elmi-tətbiqi yanaşmadan istifadə etmək olar?

Düşünmək olar ki, məsələni bu dərəcədə qəlizləşdirməyə bəlkə ehtiyac yoxdur? Türk dövlətlərinin təhsil işçiləri yığışıb müzakirə etsinlər və konkret vaxt təyin edərək tədrisə başlasınlar (əlifbanı öyrətmək mənasında). Məncə, bu, yarımçıq iş və özlüyündə bir sıra gizli ziddiyyətləri gələcəyə “aparmaq istəyənlərə” töhfə olardı. Çünki perspektivli və qalıcı birliyin mədəni-mənəvi, sosial-psixoloji təfəkkür və zəkavi təməli tam aydın pirnisplər üzrə, məsələni dərk etməyə dayanmalıdır. Dərk edilməyən proses nə qədər müsbət ruhlu olsa da, bir yerdə neqativ rol oynaya bilər. Əlifba isə insanın daxili dünyasını, mənəvi keyfiyyətlərini, psixoloji kimliyini, mədəni mənsubluğunu, dünyaduyumu və özünüdərkini dəyişir. Bu dəyişikliklərin insanın ruhuna hopması lazımdır. Onun yolu isə məhz özünüdərkdən keçir.

Deməli, əlifbanın öyrədilməsi özlüyündə iki məqamı gözləməlidir.

Birincisi, hər bir türk xalqının mədəni avtonomluğuna zərər verirməməlidir.

İkincisi, ortaq türk mədəniyyətinin “kod”ları və ya (“kültür memləri”) həmin avtonomluqların ortaq qarşılıqlı əlaqələr ritmi sahəsində yenidən mənalandırma əsasında formalaşmalıdır.

Kifayət qədər mürəkkəb nəzəri və metodoloji situasiyadır. Əslində, bütövlükdə, mədəniyyət və dövlətçilik kontekstində məsələyə bu cür yanaşmanın ciddi fəlsəfi-elmi nümunəsi vardır. Onların Ortaq Türk Əlifbası kontekstində Ortaq Təhsil Sisteminin formalaşdırılmasına təbiqi imkanları üzərində düşünək.

## Mədəniyyətin tarixi kaskad ritmləri və təhsil

“Tarixin kaskad ritmləri” anlayışını rusiyalı filosof və riyaziyyatçı Vladimir Budanov daxil etmişdir. Kaskadritmlər tarixi zamanda sosial-mədəni və psixoloji kodların (arxetiplərin) pilləvari təkamülünü nəzərdə tutur. Əgər proses müsbət inkişaf istiqamətində gedirsə, hər yeni mərhələdə (yeni pillədə) formalaşan yeni mənalar öncəki mərhələdən ikiqat güclü və səmərəli ola bilir.

V.Budanova görə, hər bir xalqın, toplumun və dövlətin tarixi təkamülündə bu qayda işləyir. O cümlədən. mədəniyyət, təhsil, elm və başqa sferalarda təkamül dinamikası kaskad ritmlər formasında olur.

Bunu mədəniyyətə aid etsək, əmin olarıq ki, xalqın tarixi təkamülündə düzgün seçim əsasında yeni mərhələdə birliyə və inteqrasiyaya doğru öncəki mərhələdən iki dəfə artıq güclə keçid etmək olar. Burada, əlbəttə, şüurda, təfəkkürdə, zəkada, intellektdə gözlənən tərəqqiyə də ümid etmək olar. Əlifbanın yuxarıda M.Maklüyen tərəfindən təhlil edilən özəlliklərini nəzərə alsaq, bu prosesi dərin fəlsəfi və elmi-tədrisi aspektinin olduğuna şübhə yeri qoymaz.

Konkret desək, V.Budanovun “sosial-mədəni və tarixi proseslərin kaskadritm” formasında inkişaf nəzəriyyəsi göstərir ki, Ortaq Türk Əlifbası bütövlükdə təhsil sisteminin səmərəli yeniləşməsi ilə sıx bağlı hadisədir. Bu sistemdə işləri elə qurmaq olar ki, kiçik yaşlarından uşaqlar ortaq əlifbanı özlərinin daxili tələbatı, ehtiyacı kimi qəbul etsinlər. V.Budanov yazır ki, “sosial arxetipin aktivləşdirilməsi məqamı cəmiyyətə yeni keyfiyyətlər gətirir, yeniləşmiş arxetipin kaskadritmlərinin ağacvari artması prosesini motivə edir”. Bu, həm də sosial-mədəni mühitin güclü parlaması kimi də təsəvvür edilə bilər. Məsələn, mədəni və mənəvi-əxlaqi passionarlığa güclü təkan verər.

V.Budanov fikirlərinə davam edir: “Bu, minlərlə insanın, ictimai şüurun və ya təfəkkür durumunun (intellektual vəziyyətin – F.Q.) parlaq ahəngdar yüksəlişi kimi təzahür edə bilər”. Bu, güclü “transformasiya zonası”nın yaranması deməkdir.

Əlifba ritmkasadın faktoru kimi təcrid olunmuş halda güclü transformasiya zonası yarada bilməz. Çünki, o, ayrıca proses deyildir, bütövlükdə, xalqın intellektual, mədəni, mənəvi. əxlaqi, dünyadumuyu təkamülünün tərkib hissəsi, çox vacib xarakteridir. Əlifba isə bu keyffiyyətdə ilk növbədə təhsil sistemində “yuvalanır”.

Deməli, əlifbanın real, qalıcı və konstruktiv reallaşması, bütövlükdə, təhsilin təşkili kontekstində predmetləşə bilər. Əlifba bu anlamda təhsilin ibtidai mərhələsindən başlayaraq ali təhsil miqyasına qədər bütün mərhələlərdə ciddi rol oynayır.

Maraqli nəzəri problemdir. Bir tərəfdən, əlifbanı mücərrəd məqsədlərə tabe etməmək lazımdır, çünki o, həmişə praktiki-tətbiqi kontekstə malikdir. Digər tərəfdən, təhsilin bütün pillələrində onun özünəməxsus funksiyası mövcuddur. Bu iki aspektin optimal münasibətlərində yeni əlifbanın tədrisi çox vacibdir.

## Əlifbanın birləşdirici rolu

Vurğuladığımız yanaşma əlifbanın mədəni müstəvidə birləşdirici rolunu da dərk etməyə imkan verir. Onun iki aspektini ayıra bilərik.

Birincisi, əlifba, bütövlükdə, müasir cəmiyyətlərdə yaradıcılıq, yaddaş, informasiyanın saxlanması və ötürüməsi, bütün kommunikativ proseslərin mexanizmi kimi əvəzedilməz funksiya yerinə yetirir.

İkincisi, təhsilin müxtəlif pillələri arasında məzmun və kommunikativ vəhdəti təmin edir. İbtidai təhsil başlanğıc, ali təhsil isə son deyildir. İbtidai təhsilə qədər də uşaqların əlifbanı öyrənməsi mümkündür. Ali təhsildən sonra isə elmi fəaliyyətdə əlifba əsas kommunikativ və dərkedici mexanizm rolunu oynaya bilər. Bu o deməkdir ki, hansı sahədə çalışmasından asılı olmayaraq əlifba müasir insanın həyatının bütün mərhələlərini avtomatik olaraq intellektual aspektdə birləşdirən mühüm faktordur.

Bir qədər də açıq ifadə etsək, əlifba insanın beyninin intellektual sferasının qurulmsının təməlidir. İnsan əlifbanı məzmun, mahiyyət və formasına uyğun olan intellektə sahib ola bilər. M.Maklüyen və həmfikirləri əlifbanın məhz bu yaradıcı, qurucu, birləşdirici və kommunikativ özəlliklərini nəzərə alaraq onu, ümumiyyətlə, kimliyinin əsas faktorlarından biri kimi qəbul etmişlər.

Bu kontekstdə əlifbanın ali təhsil səviyyəsində oynadığı rol ayrıca əhəmiyyət daşıyır. O mənada ki, Ortaq Türk Əlifbasından Ortaq Türk Universitetinə keçidin daxili məntiqi və məqsədləri olmalıdır. Cəmiyyətlərin ortaq əlifbadan ortaq universitetin təşkilinə zehni transformasiyası sadə proses deyildir. Burada bir-biri ilə sıx əlaqəsi olan iki istiqamətin vəhdəti vacibdir.

Birincisi, Ortaq əlifbanı bilən gənclərin vahid mədəni, mənəvi, əxlaqi və vətənpərvər məcraya yönəldirilmələri. Onlarda ortaq “türk dövləti vətəndaşlığı” təsəvvürünün və duyğusunun formalaşdırılması.

İkincisi, bu təməldə yüksək səviyyəli və müasir düşüncəli peşəkar kimi formalaşması.

Məhz bu kimi kadrları nəzərdə tutaraq Azərbaycan Prezidenti “gələcəyin kadrlarını hazırlamaq lazımdır” tezisini rəli sürmüşdür. Bu tezisin tarixi və strateji dərinliyini anlamaq üçün topluma vaxt lazım olacaqdır.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Üçüncü fiasko

*(əvvəli 1-ci səhifədə)*

Silahlı qüvvələrimizin 2023-cü ilin sentyabrında reallaşdırdığı lokal xarakterli antiterror tədbirləri ilə bədxahlarımızın səyləri heçə endirildi. Antiterror tədbirləri Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycanın diplomatik uğurunun məntiqi sonluğu idi. Bu uğurun nəticəsi idi ki, ikinci dəfə də Ermənistanın, ümumən “erməni kartı”nın lazımsızlığı sübuta yetirildi. Ancaq rəsmi İrəvan yaşananlardan nəticə çıxarmadı...

Baş nazir Nikol Paşinyan və komandası indi də anlaya bilmir ki, ötən dörd ilə yaxın müddətin hadisə və prosesləri təkcə Azərbaycanın güc yolu ilə əldə etdiyi nəticə deyil, bütövlükdə, düzgün strategiyanın məhsuludur. Sözügedən komandanın dərin düşünülmüş, ustalıqla gerçəkləşdirilən strategiyaya qarşı qoyacaq heç nəyi yoxdur. Amma erməni başbilənlər bunun fərqində olmayacaq, gücsüzlüklərini anlamayacaq qədər rəzil və iflic durumdadırlar.

Rəsmi İrəvan, o cümlədən, xaricdəki ermənipərəstlər çalışırlar ki, Azərbaycanla sülh müstəvisində Ermənistan üçün hansısa dividendlər əldə etsinlər. Bunun üçün ərazi bütövlüyü və suverenliyi əsas götürür, mahiyyətcə isə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın icrasından yayınırlar. Onlar Azərbaycanın Naxçıvana maneəsiz – heç bir gömrük və sərhəd nəzarəti olmayan yol istəyinin təmin edilməməsinə, açılması beynəlxalq zərurətə çevrilmiş qlobal nəqliyyat kommunikasiyalarının İrəvanın maraqlarına uyğun – “Dünyanın kəsişməsi” avantürası əsasında fəaliyyətinin təmin olunmasına səy göstərirlər. Hazırda sırf bu komponent üzrə Qərb, Rusiya və İran xəttinin aktivliyi diqqətdən yayınmır. Yəni, Ermənistanın diplomatik fəallığı sözügedən üç qütbün maraqları kontekstində manevr gerçəkləşdirməyə əsaslanır. Əlbəttə, bu, səmimiyyətdən uzaq, son dərəcə məkrli oyundur. Müharibə məğlubu olan ölkə belə təhlükəli sularda üzməməlidir.

Ermənistan rəhbərliyi rasional düşünmək istəmir, Azərbaycanla düşmənçilik ritorikasına xas üslubda davranır. Bu davranışda fürsətcillik var. İrəvan silahlanır və onun millitarizasiya siyasətinin ölkəmizə qarşı işğalçılıq cəhdlərinin yaşanacağına dair ciddi şübhələr formalaşdırır. Baş nazir Nikol Paşinyan administrasiyası, sanki münasib zaman gözləyir. Daha doğrusu, zamanın Qərb, Rusiya və İran arasında rəqabət müstəvisini formalaşdırmaqla yetişəcəyini düşünür. Erməni hakimiyyəti oxşar davranışının iki dəfə fiaskoya uğradığının fərqinə varmır, illüziya bataqlığındakı yerini bir qədər də möhkəmləndirir.

Qeyd edək ki, Azərbaycanın uğurla həyata keçirdiyi xarici siyasət kursu bütün mümkün təhlükələrdən etibarlı müdafiə institsionallığına malikdir. Hərbi potensial isə öz yerində. Yəni, ölkəmizin siyasi-diplomatik səriştəsi ilə hərbi gücü bir-birini tamamlayan xüsusiyyətə malikdir və xarakterimiz indiyədək dəfələrlə sınaqlardan çıxıb. Ermənistanın siyasi rəhbərliyinin unutduğu başlıca məqam da elə budur. Paşinyan və komandası hazırda Azərbaycanın diktə etdiyi sülh şərtlərini qəbul etməməklə, müasir Ermənistan tarixinin üçüncü fiaskosuna doğru gedir.

Bəli, Ermənistan rəhbərliyi ötən iki fiaskonun acı nəticələrini unutmamalıdır. Obrazlı desək, Azərbaycan adlı qatarın çarxlarına çomaq soxmaqdan uzaq dayanmalıdır. Nəzərə almalıdır ki, ölkəmiz istər 44 günlük müharibədən, istərsə də bir illiyini qeyd etdiyimiz lokal xarakterli antiterror tədbirlərindən sonra ona barış əlini uzatdı, əməkdaşlığa dəvət etdi. Bu mənada Prezident İlham Əliyevin Azərbaycan xalqına sözügedən antiterror tədbirlərinin başa çatmasından sonra, konkret olaraq, 20 sentyabr 2023-cü il tarixindəki müraciətində bildirdikləri yada salınmalıdır: “Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümid var ki, o gün uzaqda deyil – Azərbaycan və Ermənistan öz aralarında olan problemləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar”.



Ancaq ötən bir ildə ümidlərin özünü doğrultmadığını görürük. Bildirdiyimiz kimi, hazırda Ermənistan öz avantürizmini Qərb, Rusiya və İran arasındakı ziddiyyətlər fonunda davam etdirməkdədir. Eynilə 44 günlük müharibədən və lokal xarakterli antiterror tədbirlərindən əvvəlki dövrdə olduğutək, İrəvan Bakının səbir kasasını daşırmaqla məşğuldur. Ermənistan rəhbərliyi düşünür ki, Azərbaycanı tutduğu haqq yolundan döndərə biləcək. Bunun üçün müxtəlif təxribatlara əl atır, şərti sərhəddə gərginlik yaradır, xaricdən aldığı silahları sınaqdan keçirərək, ölkəmizin silahlı qüvvələrinin mövqelərini atəşə tutur. Paşinyan və komandasının üzvləri bu yolu seçməklə, ölkənin ərazi bütövlüyünə və suverenliyinə təhdid adı ilə icrasından boyun qaçırdıqları öhdəliklərinin yerinə yetirilməməsi məsələsində müqavimət göstərəcəklərini sübuta yetirməyə çalışırlar.

Son olaraq, yenə də vurğulayaq ki, Ermənistan və dünya erməniliyi özünün üçüncü fiaskosunun astanasındadır. Nəzərə alsaq ki, hazırda rəsmi İrəvanın cəhdləri daha böyük miqyaslıdır, Ermənistan üçün yaşanacaq fiaskoda tam iflas təhlükəsinin mövcudluğu mütləqdir. Yekun nəticədə ABŞ başda olmaqla kollektiv Qərb, habelə Rusiya və İran bu gedişata mane ola bilməyəcək. Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə bildirdiyi kimi, heç kəs Ermənistana kömək etməyəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Orta Dəhlizin "yaşıllaşdırılması" təşəbbüsü

**Paytaxtımızda "Qara dəniz və Xəzər dənizlərində beynəlxalq nəqliyyat dəhlizləri" mövzusunda keçirilən "Qara dəniz–Xəzər Logistika Forumu 2024" konfransında Türkiyənin "Albayrak" şirkətlər qrupunun biznesin inkişafı üzrə direktoru Cumhur Güzəlçiftçi Bakı və Trabzon dəniz limanlarının Orta Dəhlizin buraxılış gücünü artırmaq niyyətində olduqlarını bildirib.**



Türk şirkətinin təmsilçisinin sözlərinə görə, bu ilin yanvar–avqust aylarında iki liman arasında 180 min ton yük daşınıb. Gələcəkdə bu göstəricinin daha da yüksələcəyi proqnozlaşdırılıb. Ona görə də Trabzon limanının daha da artan yük axınını qarşılamaq üçün infrastrukturun genişləndirilməsi planlaşdırılıb. Bu istiqamətdə davamlı investisiya qoyuluşu nəzərdə tutulub.

Qazaxıstanın "NurZholCompany" şirkətinin Müşahidə Şurasının həmsədri və Milli İxracatçılar Assosiasiyasının rəhbəri Kanat Kobessov forumda mövcud iqtisadi çətinliklərə baxmayaraq, qlobal ticarətin qarşıdakı illərdə hər il artacağının proqnozlaşdırıldığını qeyd edib. O, belə bir vəziyyəti Avrasiya regionunun dünya nəqliyyat sisteminin getdikcə daha əhəmiyyətli hissəsinə çevrilməsi ilə əlaqələndirib. "Şərqi Rusiyadan keçən Şimal dəhlizi geosiyasi və iqtisadi dəyişikliklər səbəbindən mövqeyini itirir.

Qazaxıstan ərazisindən keçən Orta dəhlizin isə fəaliyyətində ciddi canlanma nəzərə çarpır. Həmçinin Qafqazı Mərkəzi Asiya ilə Qazaxıstan ərazisindən birləşdirən və yeni formalaşan Cənub dəhlizi də mühüm rol oynayır. Bu infrastrukturun inkişafında dəmir yolu əlaqəsi böyük önəm daşıdığından sözügedən istiqamət dinamik inkişaf gedir və dəmir yolunun yeni marşrutlarla genişləndiriləcəyi proqnozlaşdırılır".

Rumıniyanın dövlətə məxsus dəmir yolu yükdaşıma şirkəti "CFR Marfă"nın kommersiya direktoru Renata Godja isə Orta Dəhlizin bütün tərəflərə əlverişli imkanlar yaratdığını bildirərək deyib: "Hər kəs Orta Dəhlizi təşviq etmək üçün əlindən gələni etməlidir. Hazırda dəhlizdə əsas çətinliklər prosesdur qaydaları ilə bağlıdır. Rumıniyanın Milli Nəqliyyat Operatoru bu sahəni inkişaf etdirmək, nəzərə çarpan çətinlikləri aradan qaldırmaq üçün ciddi səy göstərir. Bunun üçün Rumıniyada bütün lazımi resurslar – ixtisaslı kadrlar, lokomotivlər və s. var".

Almaniyanın "DB Cargo Eurasia" törəmə şirkətinin rəhbəri Yinqnan Yao isə təmsil etdiyi qurumun Asiya və Avropa arasında mühüm nəqliyyat marşrutu kimi Orta Dəhlizin inkişafını dəstəklədiyini bildirib. Asiya, Avropa və MDB ölkələri arasındakı marşrutlarda Orta Dəhlizin önəmli yer tutduğunu vurğulayan Y.Yao infrastrukturun inkişafında əhəmiyyətli potensial müşahidə etdiyini və onun təşviqinə "Deutsche Bahn" konserninin fəal şəkildə kömək göstərməyə hazır olduğunu diqqətə çatdırıb.

"DB Cargo Eurasia" şirkəti 2022-ci ilin iyun ayından Xəzər və Qara dəniz vasitəsilə Çin və Avropa İttifaqını birləşdirən konteyner qatarlarını işə salıb. Qatarlar Qazaxıstan, Azərbaycan və Gürcüstandan keçərək həmin şirkətə ötürülür. Daha sonra yük daşımaları Avropanın 18-dən çox ölkəsini əhatə edən "DB Cargo AG" şəbəkəsi üzrə davam edəcək.

Nəqliyyat və logistika sahəsində fəaliyyət göstərən Sinqapurun "Global DTC Pte Ltd" şirkətinin proqramların inkişafı şöbəsinin rəhbəri Janar Bağaşarova forumdakı çıxışında COP29-da Orta Dəhlizin "yaşıllaşdırılması" təşəbbüsünün irəli sürüləcəyini qeyd edib. Bu təşəbbüsün Orta Dəhlizin dayanıqlılığının artırılmasına yönəldildiyini vurğulayan şöbə rəhbəri burada əsas məqsədin karbon izinin və karbon emissiyalarının azaldılması, başqa sözlə, Orta Dəhlizin ekoloji cəhətdən təmiz marşruta çevrilməsi olduğunu bildirib.

Sinqapur şirkətinin nümayəndəsi daha sonra marşrut boyunca yerləşən ölkələrin, xüsusilə, Qazaxıstan, Azərbaycan və Gürcüstanın inteqrasiyasının vacibliyini vurğulayaraq son vaxtlar bu sahədə əldə edilən əhəmiyyətli uğurları diqqətə çatdırıb və rəqəmsal platformanın tətbiqi ilə Qazaxıstanın "boz zonadan" çıxarmasına və Çin sərhədində proseslərin şəffaflığının artırılmasına imkan yarandığını xatırladıb.

Qeyd edək ki, 2024-cü ilin may ayında Sinqapurun "Global DTC Pte Ltd" və Qazaxıstanın "KTZ Express" şirkətləri arasında imzalanan saziş Orta Dəhliz marşrutu vasitəsilə Çindən Avropa İttifaqına yüklərin tranzitini sadələşdirmək üçün rəqəmsal dəhlizin yaradılmasına yönəlib. Artıq "Global DTC" rəqəmsal platforması ilə yüklərin Mərkəzi Asiya ölkələrinə çatdırılmasında elektron gömrük rəsmiləşdirilməsinin istifadəsinə başlanılıb.

Bu platforma Orta Dəhliz boyunca ticarət axınını artırmağa kömək edən qlobal neytral multimodal xarekteri daşıyır. O, bir çox ölkədə logistika proseslərinin iştirakçıları arasında vəsaitlərə qənaət etmək və səmərəliliyi artırmaq üçün rəqəmsal texnologiyalardan istifadə edərək sənədləşdirmə prosesini optimallaşdırır.

Azərbaycan hazırda Orta Dəhlizin səmərəliliyi istiqamətində davamlı layihələr gerçəkləşdirir və bu zaman nəqliyyat daşımalarının elektronlaşdırılmasına, məlumat mübadiləsinin çevikləşdirilməsinə üstünlük verir. Bu isə dəhlizin inkişafı istiqamətində atılan uğurlu bir addımdır. Çünki belə bir əməliyyat Orta Dəhliz boyunca ölkələrin yük keçidini asanlaşdırır, konteynerlərin sürətli daşınmasını reallaşdırır. Dünyada ticarət həcminin dinamik artması, buna uyğun nəqliyyatın genişləndirilməsi şəraitində nəqliyyat daşımalarının elektronlaşdırılması zəruri bir prosesdir.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Orta Dəhlizlə bağlı bir məqamı da vurğulamaq istərdik. Belə ki, Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən bu dəhliz ölkəmizin iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihədir. Bu layihə ilə əlaqədar fəaliyyətin gücləndirilməsi Qərblə Şərq arasında körpü rolunu oynayan Azərbaycan üçün mühüm önəm daşıyır.

İqtisadi baxımdan səmərəli, siyasi cəhətdən də xüsusi əhəmiyyətə malik Orta Dəhliz Avrasiya regionunda son illər ən çox müzakirə edilən məsələlərdən biridir. Çinin "Bir kəmər, bir yol" layihəsinin bir hissəsi olan bu dəhliz, həmçinin tarixi İpək yolunun ən mühüm komponentlərindən biri kimi dəyərləndirilir. Buna görə də Orta Dəhliz üzrə tranzit müddətinin 2024-cü il ərzində 18-23 gündən 14-18 günə, o cümlədən Qazaxıstan ərazisində 6 gündən 5 günə endirilməsi planlaşdırılır.

Onu da xatırladaq ki, 2023-cü ildə Orta Dəhliz çərçivəsində yükdaşımaların həcmi, təqribən, 90 faiz artaraq 2 milyon tonu keçib. Yeri gəlmişkən, 2022-ci ildə marşrut üzrə yükdaşımaların həcmi 2,5 dəfə artaraq 1,5 milyon tona çatıb. Mövcud marşrutlara ciddi alternativ kimi dəyərləndirilən dəhlizin ümumi ötürücülük qabiliyyəti isə il ərzində 5,8 milyon ton yükə hesablanıb.

# Böyük Qayıdışa dair növbəti icra monitorinqi başa çatıb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı cari ilin birinci yarısı üzrə monitorinq və qiymətləndirmə prosesini yekunlaşdırıb.**




Mərkəzdən redaksiyamıza bu barədə verilən məlumatada adıçəkilən dövlət proqramı çərçivəsində 28 min hektara yaxın ərazinin minalardan və partlamamış hərbi sursatlardan təmizləndiyi bildirib. Laçın dövlət sərhədinin buraxılış məntəqəsində "Laçın" gömrük postu qurulub.

Hesabat dövründə 767 ailə olmaqla 2904 nəfər keçmiş məcburi köçkün Şuşa, Füzuli və Laçın şəhərlərinə, Laçın rayonunun Zabux və Sus kəndlərinə köçürülüb. Azad edilmiş ərazilər üzrə, ümumilikdə, 612 nəfər işlə təmin edilib.

Qarabağ və Şərqi Zəngəzurda yüksək gərginlikli elektrik enerjisi təchizatı üçün 72,2 kilometrlik 110 kv-luq, 262 kilometrlik 330 kv-luq elektrik verilişi xətləri çəkilib. Ərazilərdə telekommunikasiya və poçt xidmətləri infrastrukturunun qurulması məqsədilə 2 yaşayış məntəqəsində poçt xidmətləri yenidən təşkil edilib, 1məntəqədə radio-televiziya yayımı stansiyasının fəaliyyəti təmin olunub. Mobil telekommunikasiya xidmətlərinin təşkili üzrə 11 yeni baza stansiyası quraşdırılıb. 5 kilometr uzunluğunda dəmir yolu xəttinin çəkilişi başa çatdırılıb.

Respublika və yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və yenidən qurulması istiqamətində Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun, Ağdam şəhərinin daxili yollarının, Xudafərin–Qubadlı–Laçın, Əhmədbəyli–Füzuli–Şuşa, Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd, Toğanalı–Kəlbəcər–İstisu və Şuşa–Laçın avtomobil yollarının tikintisi davam etdirilib. Hesabat dövründə Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanları üçün müvafiq kodlar əldə olunub. Füzuli və Zəngilan hava limanlarında uçuşların təşkili reallaşdırılıb.

Qarabağ və Şərqi Zəngəzurda məskunlaşan əhalinin bank, sığorta və maliyyə xidmətlərinə çıxış imkanını genişləndirmək məqsədilə Laçın şəhəri və Zəngilan rayonunda bank filialları, digər yaşayış sahələrində 611 bank və "Azərpoçt" tərəfindən quraşdırılmış POS-terminallar fəaliyyətə başlayıb.

Sahibkarlıq fəaliyyəti üçün əlverişli mexanizmlərin yaradılması istiqamətində regionlarda fəaliyyət göstərən sənaye parklarında 11 müəssisə rezident, 1 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Emal sənayesi və xidmət infrastrukturunun inkişaf etdirilməsi istiqamətində, ümumilikdə, 170 layihə üzrə rezidentlərin fəaliyyəti təmin edilib. 3 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə güzəştli kredit verilib. Azad edilmiş ərazilərdə fəaliyyət göstərən 12 kənd təsərrüfatı məhsulları istehsalçısına dövlət büdcəsinin vəsaiti hesabına əkin subsidiyası ödənilib.

# Manatın məzənnəsi 5 il sabit qalacaq

**Böyük Britaniyada nəşr olunan "The Economist Group"un araşdırma və təhlil bölməsi olan "Economist Intelligence Unit" jurnalının ölkəmizlə bağlı proqnozunda bildirilib ki, Azərbaycan Mərkəzi Bankı (AMB) ABŞ dollarına nisbətdə sabit məzənnə rejimi tətbiq edir.**




Manatın proqnozu sabitdir və bu, böyük həcmdə cari əməliyyatlar hesabında müsbət saldo ilə dəstəklənir.

Jurnalın araşdırmasında, həmçinin qeyd edilir ki, AMB-nin 2024–2028-ci illərdə əsas siyasət prioriteti böyük həcmdə valyuta ehtiyatları nəzərə alınmaqla manatın məzənnəsini sabit saxlamaqdır.

# BP AÇG-də hasilatı artırır

**Böyük Britaniyanın enerji nəhəngi BP 2024-cü ildə Azərbaycanın ən böyük neft yatağı "Azəri–Çıraq–Günəşli"də hasilatı artırır. Bu barədə məlumat "Fitch Group"a aid olan "Fitch Solutions" şirkətinin hesabatında yer alıb.**



Hesabatda qeyd edilib ki, bu artım ölkənin neft sektorunda uzunmüddətli struktur tənəzzülün qarşısını almayacaq. Belə ki, neft yatağının hasilatı son on ildə 50 faizdən çox azalıb. Bununla belə, yatağın Azəri–Mərkəzi–Şərq hissəsinə 6 milyard ABŞ dolları investisiya qoyulması Azərbaycanın istehsal və ixrac imkanlarına çox ehtiyac duyulan həcmləri əlavə edəcək.

"BP-nin sərmayəsi istehsal gücünü cari səviyyədən 25 faizə qədər artıracaq və hasilatın yaxın gələcəkdə gündəlik 24 min barelə yüksəlməsinə səbəb olacaq. Hasilatın hər il gündəlik maksimum 100 min barelə qədər artması nəzərdə tutulur. Müvafiq olaraq, biz ixracın 2023-cü ildəki 4,8 faizdən 2024-cü ildə 6,5 faizə və 2025-ci ildə 7 faizə yüksələcəyini gözləyirik" – deyə hesabatda bildirilib.

# Tikinti materialları istehsalı artıb

**2024-cü ilin yanvar–avqust aylarında Azərbaycanda 908,6 milyon manatlıq tikinti materialları istehsal olunub. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 23 faiz çoxdur.**



Dövlət Statistika Komitəsindən məlumatıa görə, ötən 8 ay ərzində sementdən, betondan kərpiclər və oxşar məmulatların istehsalı 73,3 faiz artaraq 103,1 min ton, asfalt istehsalı 37,9 faiz artaraq 57,5 min ton, beton istehsalı 32,3 faiz artaraq 3 milyon 205,2 min ton, betondan yığma tikinti konstruksiyalarının istehsalı 27,8 faiz artaraq 23,9 min ton, tikinti gipsinin istehsalı 13,8 faiz artaraq 61,2 min ton, sement istehsalı isə 12,8 faiz artaraq 2 milyon 720,9 min ton təşkil edib.

Hesabat dövründə tikinti şüşəsinin istehsalı 6 milyon 736 min kvadratmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 10,3 faiz çoxdur. Eyni zamanda, tikinti kərpiclərinin istehsalı 8,1 faiz artaraq 402,2 min kubmetrə, sement klinkerlərinin istehsalı isə 13,3 faiz çoxalaraq 2 milyon 750,4 min tona yüksəlib.

Bununla belə, ilin 8 ayında ölkədə əhəng istehsalı 38,2 faiz azalaraq 21,4 min ton, gips məmulatlarının istehsalı isə 2,1 faiz azalaraq 79,1 faiz təşkil edib.



# Bakıda 2028-ci ilədək 13 gəmi inşa ediləcək

**Bu gün Xəzər dənizi hövzəsinin ən böyük su nəqliyyatı istehsalı müəssisəsi olan Bakı Gəmiqayırma Zavodunun istismara verilməsindən 11 il ötür. Ötən müddətdə müəssisədə 11 gəmi inşa edilərək istismara təhvil verilib.**

Bu barədə "Bakı Gəmiqayırma Zavodu" MMC məlumat yayıb. Bildirilib ki, 2028-ci ilədək müəssisədə daha 13 müasir tipli gəmi inşa edilərək təhvil verəcək.

# TAP-da hidrogen nəqli sınaqları

**Hazırda Trans-Adriatik Boru Kəməri (TAP) konsorsiumu hidrogen daşınmasına hazırlıq üçün boru kəmərinin materiallarını sınaqdan keçirir. Bu barədə TAP AG konsorsiumundan məlumat verilib.**



Bildirilib ki, 2021-ci ildə hidrogen tədarükünə hazırlıq üzrə ilkin tədqiqatlar TAP-ın gələcəkdə hidrogen qarışıqların nəqlinə imkan verəcəyini təsdiqləyib. Lazımi sınaq obyektlərinin inkişafına sərmayə qoyaraq hazırda boru kəməri materiallarını sınaqdan keçiriilməsi işlərinin plan üzrə davam etdirildiyini qeyd edən mənbə 2024-cü ilin 3-cü rübündə boru kəmərinin dəniz hissəsi üçün ilk nəticələrinin gözlədiklərini açıqlayıb. Əldə olunan nəticələr konsorsiumda ciddi şəkildə təhlil ediləcək. Daha sonra isə cari ilin 4-cü rübündə sınaq işləri yenidən davam etdiriləcək.

Xatırladaq ki, Azərbaycan qazının Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan TAP kəməri ilə Avropaya tədarükünə 2020-ci il dekabrın 31-də başlanıb. Boru kəməri ilə hər il İtaliyaya 8 milyard kubmetr, Yunanıstana və Bolqarıstana isə 1 milyard kubmetr qaz nəql olunur. Eyni zamanda, Avropa bazarına birbaşa çıxış əldə edən Azərbaycan təbii qaz ixracını şaxələndirmək imkanı qazanıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# "A grammar of contemporary Azerbaijani" dərs vəsaitinin təqdimatı



**Sentyabrın 20-də Bakı Kitab Mərkəzində "A grammar of contemporary Azerbaijani" ("Müasir Azərbaycan dilinin qrammatikası") adlı dərs vəsaitinin təqdimatı keçirilib.**




Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, eləcə də Azərbaycanın tanınmış elm, mədəniyyət və ictimaiyyət xadimləri iştirak ediblər.

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə nəşr edilmiş kitabın müəllifləri dilçi-alim Səbinə Əliyeva və Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribovadır.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov müəlliflərin bu işə 5 ilə yaxındır başladıqlarını diqqətə çatdırıb.

Xaricdə yaşayan həmvətənlərimizin Azərbaycan dilinin qorunub saxlanılmasını, onun inkişaf etdirilməsini əsas prioritet kimi qəbul etdiklərini vurğulayan komitə sədri Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tapşırığı ilə xaricdə "Azərbaycan evlərinin" təsis olunduğunu deyib: "Onların nəzdində şənbə-bazar məktəbləri təşkil olunub ki, bizim xaricdə böyüyən uşaqlarımız və gənclərimiz Azərbaycan dilinin mənimsənilməsi üçün bu imkanlardan istifadə etsinlər".

Təqdimat mərasimində çıxış edən dilçi-alim Səbinə Əliyeva Azərbaycan dili istiqamətində görülən hər bir işin onun üçün Vətənə xidmət olduğunu deyib.

Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova belə bir dərsliyə böyük ehtiyac olduğunu söyləyib. "Biz bir neçə ildir ki, xarici tələbələrə Azərbaycan dilini tədris edirik. Həmin prosesdə Azərbaycan dilinin sistemli qrammatikasına dair dərsliyə böyük ehtiyac olduğunu görürdük və biz bunun üzərində çalışmağa başlayaraq, bu kitabı ərsəyə gətirdik", – deyə prorektor qeyd edib.

Kitabın redaktoru və Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla nəşrin əhəmiyyətini vurğulayaraq, bu gün universitetə bir çox ölkələrdən gələn tələbələrin Azərbaycan dilini öyrənmək üçün çox həvəsli olduqlarını diqqətə çatdırıb.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva bu dərsliyin gələcəkdə Azərbaycan dilini öyrənən hər kəs üçün zəngin bir ədəbiyyata çevriləcəyini vurğulayıb. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov Azərbaycan dilinə həsr olunan hər bir kitabın diqqətəlayiq olduğunu qeyd edib.

Tədbir bədii hissə ilə davam edib.

**XQ**

**Müxbirimiz Qarabağdan xəbər verir**

# Qarabağın dirçəlişi davamlı, miqyaslı və sürətlidir

## *Prezident İlham Əliyevin Ağdam və Xankəndiyə səfərinin ilkin təəssüratı*

**Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş Qarabağa və Şərqi Zəngəzura davamlı səfərlərinin hər birində erməni vandalizminin xarabazara döndərdiyi ərazilərdə möhtəşəm Qayıdış Proqramının gerçəkləşdirilməsinin növbəti addımları xalqımıza təntənə ilə təqdim edilir. Bu səfərlər zamanı həm də yenidən qurulan, dirçəldilən yaşayış məntəqələrinin, istehsal və infrastruktur obyektlərinin təməlləri qoyulur.**



Qarabağ zəfərimizin zirvəsi olmuş antiterror əməliyyatının ildönümü günlərində dövlət başçısının bölgəyə Ağdamdan başlayan səfəri də yeni açılışlara və növbəti layihələrə start verilməsi ilə əlamətdar oldu. Xəbər verdiyimiz kimi, səfərin ilk günündə Prezident İlham Əliyev Ağdamda yaradılan regional Sənaye Parkında görülən işlərlə tanış oldu, yeni zavodların açılış mərasimlərində iştirak etdi. Həmin gün ölkə rəhbəri Eyvazxanbəyli kəndinin təməlini qoydu, Xıdırlı və Kəngərli kəndlərində aparılan bərpa işləri ilə tanış oldu. Prezident İlham Əliyev Ağdam şəhərində yeni tikilən "Aghdam City Hotel"in və əsaslı bərpa edilən İmarət Kompleksinin də açılışında iştirak etdi.

Dövlətimizin başçısı Qarabağda Azərbaycanın suverenliyinin tam bərpa edilməsini təcəssüm etdirən Xankəndiyə səfəri zamanı 30 il separatatçı xuntanın ölü zonaya çevirdiyi bölgəni indi ölkənin əsas hissəsi ilə birləşdirən müasir yol-nəqliyyat kommunikasiyasında – Ağdam–Əsgəran–Xocalı–Xankəndi avtomobil yolunda görülən işlərlə də tanış oldu.

Qarabaq müxbirimiz dünən Ağdamda olub, ölkə rəhbərinin səfər marşrutundakı meydanlarda gecəli-gündüzlü çalışan inşaatçı və bərpaçılarla görüşüb. Hər yerdə adamlar dövlət başçısı ilə görüş və söhbətlərin onlarda böyük ruh yüksəkliyi yaratdığını, unudulmaz xatirəyə çevrildiyini, atılan təməllərin bölgədə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə yeni sürət və dinamizm gətirdiyini söyləyiblər.

Müxbirimizin Prezident İlham Əliyevin səfərinin unudulmaz təəssüratından, Qarabağın dirçəlişinə verdiyi töhfələrdən və yeni layihələrin önəmindən bəhs edən reportajları oxuculara qəzetimizin növbəti saylarında təqdim ediləcək.

**XQ**







# Naxçıvanda Ali Məclisə seçkilərin nəticələri təsdiqlənib

**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 1 sentyabr 2024-cü il tarixdə keçirilmiş seçkilərə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin konstitusiya icraatı qaydasında iclası keçirilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsindən redaksiyamıza verilmiş məlumatda bildirilir ki, iclası Naxçıvan Muxtar Respublikası Ali Məhkəmənin sədri Səadət Bəktaşi açıb. O, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə uyğun olaraq Muxtar Respublika Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə Ali Məclisə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılmasına dair işə konstitusiya icraatı qaydasında baxıldığını bildirib, məhkəmə tərkibini elan edib.

Sonra Ali Məhkəmənin hakimi Əli Allahverdiyev seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair məruzə ilə çıxış edib. Muxtar Respublika Mərkəzi Seçki Komissiyasının sədri Əkrəm Hüseynzadə isə seçkilərə hazırlıq prosesindən başlayaraq, son nəticələrə qədər həyata keçirilmiş işlər barədə geniş məlumat verib.

Naxçıvan Dövlət Statistika Komitəsinin aparat rəhbəri Həbib Rzayev qurumun mütəxəssislərinin yoxlama prosesində yaxından iştirak etdiyini bildirərək yoxlamanın yekununa dair rəyi elan edib. Çıxışlardan sonra məhkəmə tərkibi müvafiq qərar qəbul etmək üçün müşavirə otağına gedib.

İclasın sonunda Səadət Bəktaşi Muxtar Respublika Ali Məclisinə növbədənkənar seçkilərin nəticələrinə dair yekun qərarı elan edib. Qərara əsasən, seçki dairələri üzrə seçkilərin nəticələri, bütövlükdə, təsdiq olunub.

**XQ**

# Nərimanov Rayon Prokurorluğunun yeni binasının açılışı



**Sentyabrın 20-də Bakı şəhər Nərimanov Rayon Prokurorluğunun yeni inzibati binası istifadəyə verilib.**

Prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümü ərəfəsində daha bir inzibati binanın istifadəyə verilməsini Prezident İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi daimi diqqət və qayğısının göstəricisi olduğunu vurğulayan Baş prokuror Kamran Əliyev dövlətə və dövlətçiliyə sadiq olan prokurorluq orqanlarının fəaliyyətində qanunçuluğu rəhbər tutduğunu qeyd edib. O, yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirib, Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Sonda iştirakçılar binada yaradılan şəraitlə tanış olublar.

**XQ**

# Moskvada "Azərbaycan multikulturalizmi" fənni öyrədiləcək

**Moskva Cümə məscidində "Qalimcan Barudi adına mütaliələr" mövzusunda XVII Beynəlxalq teoloji elmi-maarifləndirici konfrans keçirilib. Məclis çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Moskva İslam İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanıb.**



Memorandumu XX Beynəlxalq Müsəlman Forumunda iştirak edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru Damir Muxetdinov imzalayıblar. Sənədə əsasən, Moskva İslam İnstitutunda "Azərbaycan multikulturalizmi" fənni tədris olunacaq. Həmçinin tərəflər arasında multikulturalizm və dini tolerantlıq mövzularında birgə layihələr həyata keçiriləcək. Birgə təşkil olunan seminarlar, konfranslar və müzakirələr "Azərbaycan multikulturalizmi" kursunu keçənlərə müasir dini və sosial məsələlərə dair biliklərini artırmağa kömək edəcək. Qarşılıqlı təcrübə mübadiləsi hər iki qurum üçün faydalı olacaq.

**XQ**

Uzaqlardan gələn sorağımız

# "Hanı mənim övladlarım?"

## *Azərbaycandan kənarda yaşayıb xalqına şöhrət gətirən məşhur soydaşlarımız və repressiya qurbanları haqqında dəyərli kitab*




**"Odlar Yurdu" dediyimiz Azərbaycan mənim gözümdə daim yanan və çevrəsinə işıq, alov, qığılcım saçan bir ocaqdır. Qığılcım deyəndə mən taleyin və tarixin hökmü ilə Vətəndən qopub getmiş, uzaqlarda da yurdunun sönməz zərrəsi kimi yaşayan böyük şəxsiyyətləri nəzərdə tuturam. Bölünsə də, bəlli bölgələri qoparılıb əlindən alınsa da Azərbaycan ocağı heç zaman kül altında qaralıb sönməmiş, odunu, istisini azaltmamışdır.**

Şərq tarixi incələndikcə qollarımızın, yollarımızın hansı uzaqlıqlara yetdiyinə, dünya boyu necə çalın- çarpaz izlərimizin qaldığına heyrətimiz daha da artır.

Bütün bunlar ayrıca araşdırma mövzularıdır; öhdəsindən bir adamın gələ bilməyəcəyi bir işdir. Bu iş gec-tez görülməlidir.

Azərbaycandan uzanan elm, təhsil, axtarış, iş, şöhrət yolları ilə yanaşı, köç, sürgün, faciə yollarının yurddaşlarımızı atdığı uzaq ünvanlar öyrənilməli, yüz minlərlə insanın tale kitabı açılmalı, yazılmalı, oxunmalıdır.

Bu həm də Vətənimizin coğrafi hüdudları ilə yanaşı, nüfuz dairəsini doğru, düzgün dərk etməyimizə yardım göstərər. Bir şeirimdə tərcüməçimə üz tutub dediyim kimi.

**Sən mənim dünyamın üfüqlərini**
**Axtarma siyasi xəritələrdə,**
**Mən orda bölünmüş,**
**əyalət, azlıq...**
**Kağızın üstündə parça-tikəyəm,**
**Siyasi xəritə – siyasətbazlıq!**

"Tarixi Azərbaycan və Türk dünyası", " Azərbaycan və Şərq" mövzuları dərindən öyrənilsə bizə yeni dəyərli bilgilər verər. Bu baxımdan Azərbaycandan kənarda yaşayan qələm sahiblərimizin, səfirliklərimizin, diaspor təşkilatlarının əlində daha geniş imkanlar var.

Uzun illərdən bəri Özbəkistanda yaşayan qələm dostumuz, jurnalist, yazıçı Qulu Kəngərlinin bu sahədə apardığı araşdırmalar Azərbaycan və Mərkəzi Asiya əlaqələrinin bizə az məlum olan elə səhifələrini açır ki, bu səhifələri bilmədən milli tariximizi bütövlüklə dərk etmək çətindir.

Dəyərli qələm dostumuz Qulu Kəngərlinin bu işlə çoxdan bəri, səbrlə, fədakarlıqla, zəhmətini gözə soxmadan məşğul olduğunu bilirdim, lakin Daşkəndə son səfərimdə mənə verdiyi "Keçmiş unudulmayanda tarixə dönür" adlı iri həcmli kitabını oxuyanda onun bu sahədə nə qədər böyük axtarışlar apardığını, zəhmət çəkdiyini və nəticədə "Azərbaycanşünaslığın" uğurlu bir səhifəsini yaratdığını gördüm.

Tarixən Doğu Türküstandan üzü bəri bötün türk yurdları, Mərkəzi Asiya və İslam aləmi Azərbaycan türkləri üçün əsas cazibə yerləri olmuşdur. Lakin Özbəkistanla Azərbaycanı bağlayan ədəbi, mədəni, iqtisadı tellər daha möhkəm və daha qədimdir. Çünki Azərbaycan və özbək xalqları nə orada, nə burada özlərini qərib, mühacir hiss etməyiblər; öz doğma evlərində yaşayan kimi yaşayıblar. Buna görə də arada Xəzər və geniş çöllər olmasına baxmayaraq bu iki xalq bu qədər yaxındır, bir birilərini bu qədər ürəkdən sevir və dərk edirlər.

Qulu Kəngərlinin kitabı Azərbaycan–Özbəkistan qardaşlığının tarixi və etnik köklərini açmaqla yanaşı, bu yaxınlaşmada rol oynamış şəxsiyyətlərin parlaq xarakterini yaradır, onların keçdiyi mürəkkəb, bəzən də faciəli yolları açıb göstərir. Bu həyat hekayələrinin fonunda türk xalqlarının yaşadıqları soyqırım, repressiya, məcburi köç faciələrini xatırladır. Bu, öz-özlüyündə son dərəcə əhəmiyyətli bir işdir.

Kitabın üstünlüklərindən biri də budur ki, müəllif bütün Mərkəzi Asiyanı–qədim Türküstan torpaqlarını gəzir, Özbəkistanla yanaşı Qazaxıstanda, Qırğızıstanda, Türkmənistanda, Tatarıstanda, Pakistanda, İndoneziyada yaşayıb yaratmış və yurduna şöhrət qazandırmış Azərbaycan övladlarının ömür dastanlarını, yığcam şəkildə olsa da, oxucuya çatdırır.

Oçerk qəhrəmanları arasında Pakistan prezidenti olmuş azərbaycanlı Qızılbaş Ağa Məhəmməd Yəhya Xanın və ya İndoneziyada İslamı yayan azərbaycanlı, "doqquz müdrikin birincisi" Mövlanə Məlik İbrahimin adlarını görmək və onlar haqqında məlumatları oxumaq heç şübhəsiz oxucularımızı təəccübləndirəcək, onlar üçün yeni bilgi mənbəyi olacaq.

Məncə bu araşdırma coğrafiyasına Hindistan da daxil edilməlidir. Böyük xalq yazıçımız, akademik Mirzə İbrahimovun bir dəfə söhbət zamanı dediyi sözləri tez-tez xatırlayıram: "Ay oğul, bilirsən Hindistanda bizim nə qədər əlyazmamız var? Onlar öyrənildikcə bizim ədəbiyyatın və mədəniyyətin zənginliyini və tarixini daha yaxşı dərk edəcəyik."

Kitabın dəyərini artıran özəlliklərdən biri də iki dildə – azərbaycanca və özbəkcə nəşr edilməsidir. Oçerk qəhrəmanlarının portretləri və həyat yolları ilə bağlı şəkillər kitabın dəyərini daha da artırır.

Akademik İsa Həbibbəyli kitaba yazdığı yüksək elmi dəyəri olan Ön sözdə Qulu Kəngərlinin zəhmətini yüksək qiymətləndirməklə yanaşı, Azərbaycan-Özbəkistan ədəbi-mədəni əlaqələrinin zəngin tarixinə nəzər salır, bu əlaqələrin öyrənilməsinin türk birliyinin gələcəyi baxımından ciddi əhəmiyyət daşıdığını ayrıca vurğulayır.

Kitab uzaq keçmişdən başlayaraq, Mərkəzi Asiyada yaşayan xalqlarla Azərbaycanı bağlayan əsas tarixi hadisələr, şəxsiyyətlər haqqında ümumi bilgi verən Girişlə başlanır.

Girişin özü də bir neçə bölməyə ayrılmışdır. "Tarixin yaddaşı" adlı bölmə oxucularımız üçün də maraqlı olan belə bir məlumatla başlanır: "Ensiklopedik alim Əbu Reyhan Biruni (973-1048), " Astranomiya və ulduzlara aid Məsud cədvəlləri" adlı əsərində Azərbaycanın 17 şəhərinin dəqiq yerini göstərir, "Ağ neft mərkəzi Bakı" haqqında söhbət açır, "Zərdüşt Azərbaycandandır" fikrini irəli sürür. Biruni "Ötmüş nəsillərin abidələri" kitabında Azərbaycan haqqında ətraflı məlumat verir. Digər ensiklopediyaçı alim Əbu Əli İbn Sinanın (980-1037) tanınan şagirdi Azərbaycan alimi Əbulhəsən Bəhmənyar (993-1066) olub. Orta əsr tarixçisi Zəhirəddin Beyxaki yazır ki, İbn Sinanın əksər polemik əsərləri Bəhmənyarın sualları əsasında tərtib edilib."

Bundan əlavə, Girişdə mərkəzi Asiyaya səpələnmiş əfşarlardan, 20-ci yüzildə genişlənən ədəbi-mədəni ilişkilərdən, Özbəkistanda Azərbaycan diasporunun formalaşmasından maraqlı məlumatlar yer almışdır..

Kitab "Taleyi Mərkəzi Asiya ilə bağlı olan tanınmış Azərbaycan türkləri", "Günahsız günahkarlar" və "Orta Asiyada teatrın yaranması" adlı üç fəsilə ayrılıb.

Birinci fəsildə gedən yazılardan bəzilərinin adlarını sadalamaq yetərlidir ki, söhbətin hansı böyük şəxsiyyətlərdən getdiyini təsəvvür edəsən:

"Böyük axund", "alimlərin sultanı", "fazillərin sübutu", "bilik səmasında 14 gecəlik ay", Mövlana Yusif Qarabaği...";

"Yusif Qarabağinin müəllimi, böyük filosof, ilahiyyatçı Mirzəcan Şirazi; "

"Səmərqənddə ilk dünyəvi məktəb açan maarifçi şeyx, Əbülqasım Əl-Gənci;"

"Tacik dilində çap olunan ilk milli qəzet-"Buxarayi-Şərif"-in naşiri və redaktoru, azərbaycanlı Mirzə Cəlal Yusifzadə";

"Mən qürurla və sevinclə bildirirəm ki Azərbaycanın oğluyam", Rober Osseyin Bakıda olarkən belə demişdi";

"İki xalqın oğlu, professional futbolçu, musiqiçi... və ya tanınmış opera rejissoru Firudin Səfərovun həyat yolu";

"Tarix həmişə kinayə etmir; çünki bəzən zaman özü hər şeyi yerinə qoyur" (Özbəkistanın Əməkdar Elm xadimi, böyek tarixçi alim Yusif Ələsgərov haqqında):

"Özbəkistanda 137 sənədli, 27 bədii film çəkən azərbaycanlı rejissor Eldar Məmmədov" və sair...

Bu fəsildə haqqında söhbət gedən şəxsiyyətlərin bəziləri ilə mən də vaxti ilə görüşmüş, haqlarında yazılar da yazmışam. Lakin Qulu Kəngərlinin oçerklərinin hər biri bir tale kitabıdır; böyük romanlara sığmayan ömür yollarının yığcam şəkildə ifadəsidir. Bu yazıların hər biri tariximizin müəyyən səhifələrinə işıq salmaqla yanaşı, həm də Azərbaycandan kənarda yaşayıb şöhrətlənmiş soydaşlarımızın istedadı və yüksək insani keyfiyyətlərinə görə ürəyimizdə böyük qürur hissi oyadır.

"Günahsız günahkarlar" fəslini əvvəldən axıra həyəcansız, təəssüfsüz, qəzəbsiz oxumaq olmur. Bu bölmədə Azərbaycan tarixində özəl yeri olan Rəfibəylilərin, Pepinovun, Qarabəy Qarabəylinin, Almaz İldırımın, Mirzə Davud Hüseynovun, Maqsud Şeyxzadənin Azərbaycandan kənarda keçən illəri haqqında maraqlı bilgilər verilir; represiya qurbanlarının faciəli taleyindən söz açılır.

Qulu Kəngərli ayrı-ayrı ailələrin, nəsillərin taleyi fonunda bütün repressiya tarixinin faciələrini açıb göstərir: "Qırğızıstana sürgün Qazaxıstan, Sibir və Uraldan keçib və ya Rəfibəylilərin Qırğızıstan qanadı..." məqaləsində oxuyuruq: "Repressiya illərində, yəni 1924-cü ildən 1953-cü ilə qədər Azərbaycandan Sibirə, Urala və Orta Asiyaya 250 mindən çox soydaşımız sürgün olunmuşdur, bəzi mənbələrdə bu rəqəm daha çox göstərilir. Qazaxıstana sürgün edilənlərin sayı isə 150 mindən çox olub və biz bu haqda artıq məlumat vermişik. Beləliklə, 1929-cu ildə Azərbaycandan ilk kütləvi sürgün həyata keçirilir və müxtəlif rayonlardan 600 ailə Aral dənizinin sahilinə yaxın baxımsız qalan Avan və Vozrojdeniye adalarına göndərilir.

...Hər vaqonda 90-100 adam, qadın, kişi, uşaq, qoca, xəstə, hamısı bir yerdə yayın istisində, qışın 40 dərəcə şaxtasında ac-susuz, cəhənnəm əzabı ilə yol gediblər.

...Yaşayış üçün tam yararsız olan bu adalar əslində ölüm düşərgəsi idi və səhrada yayda aclıqdan, qışda isə soyuqdan ölənlərin sayı günbəgün artırdı. ...Bir ildən sonra 600 ailədən cəmi 200 ailə sağ qalmışdı, onlar da yarımcan."

Müəllif bu dözülməz şəraitdən çıxan insanların qəhrəmanlığını, böyük əzablara qatlaşsalar da yenə öz köklərini, milli kimliklərini unutmadığlarını vurğulayır və ölümdən keçib öz yeni həyatlarını quran insanların bəzilərinin adlarını çəkir, onların həyat hekayəsini yazır: "Qırğızıstanın əməkdar həkimi, professor Cahangir Rəfibəyli, fizika-riyaziyyat elmləri doktoru professor Ramiz Rafatov, professor Arif Qəmərli, onun qardaşı, əməkdar elm xadimi professor Zakir Qəmərli, onlarca elmlər namizədi adını alan həmvətənlərimiz..."

Bu girişdən sonra müəllif "Rəfibəylilər nəslinin Azərbaycan xalqı qarşısındakı xidmətlərini sayılmaqla qurtarmaz" deyə Gəncədə görkəmli Azərbaycan maarifçisi Ələkbər bəy Rəfibəylidən başlayaraq müxtəlif ölkələrə səpələnmiş bir nəslin görkəmli simaları haqqında yığcam, amma son dərəcə maraqlı məlumat verir.

Repressiya qurbanlarının faciəli həyat yolu haqqında oçerklərin hər biri bitkin bir əsər təsiri bağışlayır. Onların heç biri ötən əsrin Stalin rejiminə oxunan bir ittihama, bir ölüm hökmünə bənzəyir. Belə bir təsəvvür yaranır ki, repressiya qurbanlarının üzləşdikləri faciələri Azərbaycanla yanaşı, Qazaxıstan və Mərkəzi Asiya respublikaları birgə yaşayıblar. Türkün ağrısı Azərbaycandan başlanıb bütün türk dünyasına yayılıb.

Bu qədər böyük tarixi şəxsiyyətin həyat hekayəsini yaradan Qulu Kəngərlinin əməyi yüksək dəyərə layiqdir.

Müəllifin ALJİR-də məhkumluq həyatı yaşayan azərbaycanlı qadınlara həsr edilmiş yazısı ayrıca bir faciə dastanıdır. Müəllif 2011-ci ildə Qazaxıstanın Akmola vilayətinin Akmola kəndindəki muzeydə vaxtilə burada məhkum həyatı sürmüş azərbaycanlı qadınlara xatirə lövhəsinin açılmasından bəhs etdikdən sonra Qazaxıstanda sürgün əzabı yaşamış azərbaycanlı qadınların tam olmayan bir siyahısını və onlar haqqında yığcam məlumatı da oxucuların diqqətinə çatdırır. Təəssüf ki, repressiya qurbanı olmuş qadınlarımızın taleyi hələ də geniş şəkildə araşdırılıb yazılmamışdır.

Qulu Kəngərlinin kitabı repressiya qurbanları və Sibirə, Urala, Qazaxıstan və Mərkəzi Asiyaya sürgün edilmiş insanların taleyinin diqqətlə öyrənilməsi və yazılması zərurətini bizə bir daha xatırladır.

Haqqında söhbət gedən kitabın üçüncü fəslində isə Özbəkistan, Türkmənistan, Tacikistan teatrının inkişafında və o teatrlar üçün mütəxəssislərin yetişdirilməsində Azərbaycan Teatr məktəbinin və görkəmli sənətkarlarımızın oynadığı rol haqqında bilmədiyimiz məlumatlar yer almışdır.

Qulu Kəngərli bu kitabı ilə böyük bir vətəndaşlıq işi görmüş, eyni zamanda, sübut etmişdir ki, o, yalnız jurnalaist deyildir, həm də yetkin bir yazıçıdır, kamil qələm sahibidir, yorulmaz bir araşdırıcı və tarixçidir. Çünki kitabın qəhrəmanlarının hər biri haqqında yazmaq ciddi axtarış, tarix səhifələrini gözdən keçirmək, arxivləri öyrənmək kimi, çətin, mürəkkəb və məsuliyyətli bir iş tələb edir...

Kitabın iki dildə çıxması rəmzi xarakter daşıyır. Çünki Qulu Kəngərlinin yaradıcılığı da çoxdan bəri hər iki dövlətin informasiya sisteminin və ədəbi həyatının tərkib hissəsidir.

***Sabir RÜSTƏMXANLI,***
***Xalq şairi***

"Qayıdış" layihələri

# Qarabağda "ağıllı" su sistemləri qurulur

**Azərbaycan şirin su ehtiyatlarının az olduğu ölkələrdən biridir. Bu azmış kimi son illərdə müşahidə olunan qlobal iqlim dəyişikliyi və orta temperaturun yüksəlməsi yerüstü su ehtiyatlarının, çaylarda sululuğun və yağıntıların xeyli azalmasına səbəb olur. Əhalinin sürətli artımı, həyat standartlarının yüksəlməsi, ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı isə ona tələbatı artırır, su təchizatı ilə bağlı problemlərin yaranmasına səbəb olur.**





Bu problemin aradan qaldırılması yeni innovasiyaların – "Ağıllı su sistemləri"nin tətbiqini gündəmə gətirir. O, şirin su anbarından başlayaraq tullantı sularının toplanmasına və təmizlənməsinə qədər bütün su təchizatı zəncirinə nəzarət edir. Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutunun idarə heyətinin sədr müavini Vüqar Mirzəyevlə söhbətimiz də bu mövzuda oldu:

– İnstitut Azərbaycan Respublikası Prezidentinin 17 noyabr 2023-cü il tarixli 2356 nömrəli Fərmanına əsasən Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Azdövsutəslayihə" və "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutlarının birləşməsi yolu ilə yaradılıb. Hazırda su təsərrüfatı və meliorasiya obyektlərinin, su təchizatı, tullantı sularının emalı və axıdılması sistemlərinin layihələndirilməsi ilə məşğul oluruq. Bir ay bundan əvvəl quruma Xankəndi şəhərinin (Kərkicahan qəsəbəsi daxil olmaqla) su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı müraciət daxil oldu. Xəlfəli çayı üzərindəki mövcud suqəbuledici qurğuya və gələcəkdə Xankəndi və Şuşa şəhərlərinin dayanıqlı su təminatının həyata keçirilməsi məqsədilə yaradılacaq anbara baxış keçirildi.

Məlum oldu ki, sistem pərakəndədir və müasir standartlara cavab vermir. Şəhərdə yaşayan və işləyən insanlar üçün gündəlik həyatı asanlaşdırmaq və daha da yaxşılaşdırmaq üçün son model texnologiyalardan istifadə edilməklə infrastruktur yenidən qurulmalıdır. Bu məqsədlə, "Ağıllı şəhər" konsepsiyasına uyğun olaraq konkret addımlar atılır, nəhəng quruculuq və yenidənqurma işləri həyata keçirilir.

Birinci mərhələdə Kərkicahan qəsəbəsində 35 kilometr, ikinci mərhələdə isə Xankəndi də daxil olmaqla 87 kilometr yol yenidən qurulacaq. Bu yollara paralel olaraq su xətti və kanalizasiya şəbəkəsi çəkiləcək. Texniki göstəricilərə görə, onların hər birinin uzunluğu 120 kilometrdir. Artıq Xankəndi ilə bağlı bəzi işlərə başlanılıb. Layihə ərazisinə mütəxəssislər əraziyə baxış keçirib və ilkin araşdırma işləri aparılıb. Bundan sonra layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçiriləcək və digər sənədlər hazırlanacaq.

**– "Ağıllı" su təchizatı modeli Şuşa və Daşaltı layihələrinizdə necə əksini tapıb?**

– Şuşa işğaldan azad olunduqdan sonra su mənbələrinin, magistral xətlərin, paylayıcı şəbəkələrin və digər hidrotexniki qurğuların mövcud vəziyyəti araşdırıldı. Məlum oldu ki, şəhəri içməli su ilə təmin edən mənbələr və magistral kəmərlər məqsədli şəkildə dağıdılıb və nəticədə suyun nəqli dayandırılıb. Bundan sonra, şəhərin içməli, tullantı və yağış suları sistemlərinin yaradılması və yenidən qurulmasının texniki–iqtisadi əsaslandırma və layihə sənədlərinin hazırlanmasına Niderlandın "Vitteveen bos" məsləhətçi şirkəti cəlb olundu. Layihə hazırlanarkən Şuşa şəhərinin su mənbələri, anbar və paylayıcı şəbəkələri, suyun keyfiyyəti, tullantı sularının idarə olunması və ekoloji məsələlər nəzərə alındı. 3 mərhələdə həyata keçirilən layihələrin texniki-iqtisadi əsaslandırılması və ilkin sənədlərin işlənilməsi həyata keçirildi.

Bundan başqa, Şuşa şəhərinin içməli, tullantı və yağış suları sistemlərinin yaradılması layihəsinin ətraf mühitə təsirinin qiymətləndirilməsi hesabatı hazırlandı. Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr olan sutoplayıcı bənd və suyun anbarlara nəqli üçün magistral kəmər layihələndirildi. İnstitutun layihəsi əsasında Kiçik Kirs mənbəyi və Kiçik Kirs–Şuşa magistral su kəmərinin qəzalı hissələri qısa müddətdə təmir olunaraq 2020-ci il noyabrın 25-də Şuşa şəhərinə suyun verilməsi bərpa edildi. Eyni zamanda, Şuşa şəhərinin digər su mənbəyi – Zarıslı sugötürücü qurğusu, Zarıslı–Şuşa magistral su kəmərinin qəzalı hissələrinin bərpasına başlanıldı və dekabrın 20-də bu mənbədən şəhərə suyun verilməsi təmin edildi.

Şəhərin perspektiv inkişafı, həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrində məhsuldarlığın kəskin azalması səbəbindən alternativ su mənbəyinin yaradılması layihəsinin icrasına başlanıldı. Bu məqsədlə Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında sutoplayıcı anbar, nasos stansiyası və yeni kəmər layihəsi icra edildi.

2040-cı ilədək Şuşanın perspektiv inkişafı nəzərə alınmaqla hazırlanan su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsinə əsasən, şəhərin orta günlük su tələbatı saniyədə 105 litr təşkil edəcək. İçməli su mövcud Kiçik Kirs, Zarıslı mənbələrindən, həmçinin Zarıslıçay su anbarından veriləcək.

Şəhərdə formalaşan tullantı sularının tam təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr olan qurğu inşa ediləcək. Qurğuda emal edilərək təmizlənən su ətraf mühitə təhlükə yaratmadan Qarqarçay çayına axıdılacaq. Şuşa şəhərində yaradılan yeni infrastruktur "Ağıllı su" sistemi əsasında idarə olunacaq. Bütün bunların layihələndirilməsi bizim İnstitut tərəfindən həyata keçirilir. Onu da deyim ki, suyun mənbədən götürülməsi, nəqli, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə onlayn rejimdə tənzimlənəcək.

**– Qarabağ və Şərqi Zəngəzurun su təchizatı ilə bağlı daha hansı layihələr üzərində işləyirsiniz?**

– 2020–2024-cü illərdə işğaldan azad edilmiş ərazilər üzrə ekspertizaya təqdim edilmiş 28 kənd, qəsəbə və 7 şəhər üzrə layihə smeta sənədləri hazırlanıb. Qarabağda infrastruktur quruculuğunun əsas sahələrindən olan su təchizatı sferasında mühüm işlər görülüb. Bu istiqamətdə dövlətin birbaşa dəstəyi ilə yeni sututarların yaradılması və şəbəkə infrastrukturunun genişləndirilməsi üzrə iri layihələr icra edilib.

**– Birinci Qarabağ savaşının iştirakçısı kimi azad edilmiş ərazilərin dirçəlişinə kömək etmək, sübhəsiz, ikiqat sevindirici və məsuliyyətli missiyadır.**

– 1992-ci ildə könüllü olaraq hərbi xidmətə getdim. Bir müddət sonra özünümüdafiə batalyonları ləğv olunub nizami ordu yaradıldı. İnanırdım ki, Qarabağ uzun müddət düşmən tapdağı altında qala bilməz, bir gün işğaldan azad ediləcək. O günü görmək mənə də nəsib oldu. İndi biz Qarabağa yeni həyat bəxş edirik. İşimlə bağlı Şuşada olanda Cıdır düzünə getdim. Sıldırımlı yarğana çatanda tüklərim biz-biz oldu. Yarğanlığı maraqla izləyir və qürur hissi keçirirdim. Burada 2020-ci il noyabrın 6-da ağır döyüşlər getmişdi. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin yüngül silah-sursatla təchiz edilmiş, hərəsi 100 nəfərdən ibarət olan 4 qrupa bölünmüş 400 nəfərlik heyəti Şuşanın sıldırımlarına iplərlə dırmaşaraq səhər saatlarında şəhərə 4 tərəfdən daxil olmuş və burada dərhal döyüşlər başlamışdı. Bu döyüşlərlə Azərbaycan xüsusi təyinatlıları regionda ən hazırlıqlı komanda qüvvələri olduqlarını bir daha göstərmişdilər.

Şuşada olarkən şəhidlərimizin qəhrəmanlığına heyran qaldım. Onlar bu şəhəri xilas etdikləri kimi, biz də hamılıqla dirçəltməliyik.

Qarabağ düşməndən azad olunduqdan sonra hər tərəfdə böyük bərpa və quruculuq işləri aparılır. Bunu Ağdam, Xocalı, Xankəndi və Şuşada da gördüm. İnfrastruktur layihələri uğurla reallaşdırılır, sənaye, aqrar və turizm sektorları yaradılır. Su və kanalizasiya sistemi yenidən qurulur. Aparılan bərpa və quruculuq işləri iqtisadi və sosial inkişaf üçün yeni imkanlar açır. Sevindiricidir. Görülən işlər Qarabağın ölkəmizin iqtisadiyyatında önəmli rol oynayacağından xəbər verir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Qayıdışın akkordları

# Xoş gəldin süfrələrimizə, "İstisu"

## "Dirilik suyu"nun faydaları və istifadə qaydaları

**Nəhayət, uzun illərdən sonra həsrətini çəkdiyimiz "İstisu" da süfrələrimizə qayıtdı. Vaxtilə Kəlbəcərə müalicəyə gedənlər qayıdanda ailəsi üçün mütləq "İstisu" da gətirərdilər. İçməkdən doymadığımız bu şəfalı su mağazaların vitrinlərini bəzəyərdi. Kəlbəcərin azadlığa qovuşması bu misilsiz dirilik çeşməsini də əsarətdən xilas etdi. Yaşlı nəsil bu suyun dilini yaxşı bilsə də gənclərimiz onun fayda və qaydalarından xəbərsizdir. Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova bununla bağlı açıqlamasında bildirdi:**



– Kəlbəcərin məşhur "İstisu"yunda mineralların çox olması onu təbii süfrə suyundan fərqləndirir. Bu su tərkibindəki kimyəvi elementlərə görə müalicəvi əhəmiyyətə malikdir. Ona görə də "İstisu"dan istifadə edərkən, bəzi məqamlara diqqət etmək lazımdır. "İstisu"yun tərkibində dəmir, yod, fosfor, sink, mis, nikel, maqnezium, eləcə də yod-brom və yüksək miqdarda litium var. Bu maddələrin çox olması onların bir çox xəstəliklərin müalicəsində faydalı olduğunu göstərir. Əsasən, mədə-bağırsaq, həzm problemi, qaraciyər xəstəlikləri, öd kisəsi və digər daxili orqanlarla bağlı şikayətləri olanlar "İstisu"dan istifadə edə bilər.

Bu mineral suyun qəbulu ilə bir çox xəstəlikləri sağaltmaq mümkündür. Hətta onunla yuyunub bəzi dəri xəstəliklərinin də qarşısını almaq olar. "İstisu" tərkibindəki kalsium və maqneziuma görə, sümük və diş sağlamlığında da önəmli rol oynayır. Saçlarda kəpəklənmə probleminin də bu su ilə aradan qaldırıldığı təsdiqlənib. Oynaqlarda ağrı, eyni zamanda, dəridə qabıqlama, qızartı, hər hansı allergik reaksiyalar zamanı da mineral su faydalıdır. Su, həmçinin dəri səpkilərinin quruyub daha tez zamanda sağalmasına kömək edur. Qan dövranının yaxşılaşmasında, yaşlılıqdan qaynaqlanan əzələ və oynaq ağrılarının aradan qalxmasında istifadə olunur.




**– Gün ərzində bir insan nə qədər "İstisu" içə bilər?**

– Suyun tərkibində mineralların həddindən artıq çox olması səbəbindən onu müəyyən qayda ilə içmək lazımdır. Əks halda, bu, böyrək problemlərinə gətirib çıxara bilər. Eləcə də, mədədə yanğı hissini, mədə turşuluğunu artırar. Bəzən insanlar bunu təbii süfrə suyu ilə qarışdırır, hər susuzlayanda içirlər. Ancaq "İstisu"yu gün ərzində bir, bəzən isə iki fincandan artıq içmək tövsiyə olunmur. Həmin suyu gündə bir litrdən artıq qəbul etdikdə orqanizmdə müəyyən ciddi fəsadlar yarana bilər. Xüsusilə, xroniki xəstəlikləri, öd və böyrəyində daş olan insanlar sudan daha ehtiyatla istifadə etməlidirlər.

Digər bir məqam isə ondan ibarətdir ki, "İstisu"yun tərkibindəki qaz təbii olduğuna görə orqanizm tərəfindən normal qəbul olunur. Bir çox insanlar isə bunu digər sənaye üsullu qazlı sularla qarışıq salırlar. Sənaye üsulu ilə hazırlanan sularda qaz ağırlıq yaradır. Yaxud da həmin sudakı qaz daha sərt hiss olunur və ağıza müəyyən dad gəlir. Amma təbii "İstisu"da qaz normal qaydada olduğuna görə, narahatlıq yaratmır, ağızda xoşa gələn yumşaq dad olur və ağırlıq hiss olunmur.

***ZH ÜSEYNOVA***
***XQ***

# Yeni Kaledoniyanın Azadlıq Cəbhəsi Fransaya etiraz edir

**Fransa hökumətinin vəhşiliklərinə etiraz əlaməti olaraq Yeni Kaledoniyanın Azadlıq Cəbhəsi (FLNKS) Bəyanat yayıb.**

Bəyanatda qeyd edilir ki, Fransa Silahlı Qüvvələri 19 sentyabrda yenidən Yeni Kaledoniyada dinc nümayişçilərə qarşı odlu silahlardan istifadə ediblər. İki mülki şəxs güllələnib, onlardan biri ölüb, digəri ağır yaralanıb.

Eyni zamanda, Fransa idarəçiliyinə qarşı Martinikdə də etirazlar başlayıb. Fransa hökuməti Yeni Kaledoniyada olduğu kimi, Martinikdə də komendant saatı tətbiq edib. Dinc etirazçılara qarşı təhlükəsizlik qüvvələri aşırı güc tətbiq ediblər.

"Yeni Kaledoniyadakı vəziyyətin ciddiliyinin nəzərə alınması üçün biz Fransaya və beynəlxalq ictimaiyyətə müraciət edirik. Biz əməliyyatların şəffaflığına zəmanət vermək və dialoqun bərpasına kömək etmək üçün bir daha beynəlxalq müşahidəçilərin göndərilməsini xahiş edirik. Numea sazişində götürülmüş öhdəliklərə uyğun olaraq Kanak xalqının tam suverenlik uğrunda istəklərinə cavab vermək üçün ölkəmizin institusional və siyasi gələcəyi ilə bağlı danışıqları yenidən başlamaq vacibliyini ifadə edirik.



Nəhayət, FLNKS Sent-Luis qəsəbəsinə, onun əhalisinə, aidiyyəti ailələrə öz dəstəyini verir, gəncləri öz həyatlarını qorumağa və ümumilikdə, əhalini tam məsuliyyətlə səfərbər olmağa çağırırıq", – deyə bəyanatda vurğulanır.

# "Sağlam həyat" əhatəsini genişləndirir

**İnsanların mənəvi və fiziki inkişafında mühüm rol oynayan bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsi istiqamətində görülən işlər davam edir.**



Sentyabrın 19-da Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Tofiq Bəhramov adına Respublika Stadionunun qarşısında reallaşan "Sağlam həyat" səyyar layihəsinin təqdimatı bu baxımdan xüsusi maraqla qarşılandı.

İdman həvəskarları, könüllülər, eləcə də, şəhər sakinləri əyləncəli vaxt keçirdilər. Onlar müxtəlif idman növlərində - voleybol, basketbol, stolüstü tennis, şahmat, badminton, velosiped, boks avadanlıqlarında öz güclərini sınadılar. Onu da qeyd edək ki, bu avadanlıqların hər biri ilk dəfə sentyabrın 15-də istifadəyə verilən "Sağlam həyat" avtomobilində yerləşib.

Gənclər və İdman Nazirliyinin Regionlar iş sektorunun müdiri Elvin Zeynallı layihənin əsas məqsədinin sağlam həyat tərzini təbliğ etmək olduğunu bildirdi. O dedi ki, peşəkar idmanla yanaşı, əhalinin sağlam həyat tərzinin təminatı nazirliyin prioritet istiqamətlərindən biridir: "Nazirlik bu il regionlarda 897 kütləvi bədən tərbiyəsi tədbiri təşkil edib. İndiyə qədər 8 "Sağlam həyat" layihəmiz olub. Bunlardan biri də işğaldan azad olunmuş Laçın şəhərində keçirilib.

Sektor müdirinin sözlərinə görə, səyyar maşını regionlarda təşkil olunacaq "Sağlam həyat" layihəsində istifadə olunacaq: "Avtomobilin ikinci mərtəbəsində ofis yerləşir və bir sıra idman növlərinin inventarları ilə təchiz olunub. Bir neçə gün öncə Bakı şəhər Bulvarında "Formula-1" yarışlarında bu səyyar xidmətini test etdik və bu, insanların xüsusi marağına səbəb oldu. Yeni layihə hətta turistlərin də çox diqqətin çəkmişdi. İndi planlaşdırırıq ki, bu layihəni bütün regionlarda reallaşdıraq. Səyyar xidmətimizin sayının artırılması da planlaşdırılır. Hələlik bir avtomobilimiz var. Əgər bu, daha çox insanın diqqətini cəlb etsə, o zaman avtomobilin sayını artıra bilərik.





***Leyla QURBANOVA,***
***Cavid QAÇAYEV (fb )***
***XQ***

# Ailə problemləri media aynasında



**Bu günlərdə İsmayıllı rayonunda jurnalistlərin və sosial media blogerlərinin iştirakı ilə "Ailə, qadın və uşaq problemlərinin mediada işıqlandırılması" mövzusunda təlim keçilib. Məqsəd qələm əhlinin bu sahədə bilik və bacarıqlarının gücləndirilməsi, uşaq hüquqları və gender bərabərliyinə dair informasiyanın yayımlanmasında həssaslığın artırılmasıdır.**



Təlimin ilk günündə Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin əməkdaşı Tural Hüseynzadə "Ailə, qadın və uşaq məsələlərinə hüquqi yanaşma: media müstəvisində" mövzusu üzrə çıxış edərək, məişət zorakılığı və gender əsaslı zorakılıq halları ilə mübarizə istiqamətində mövcud qanunvericilik, həmçinin media nümayəndələrinin üzərinə düşən öhdəliklər barədə danışıb. O, məlumatlar işıqlandırılarkən cinsi ayrı-seçkiliyə yol verilməməsi, balans, dəqiqlik, mənbə müxtəlifliyi kimi prinsiplərə diqqətlə yanaşmanın vacibliyini vurğulayıb.

İkinci gün "Mediada psixoloji sağlamlıq: intihar və bənzərliklər" mövzusunda klinik psixoloq-psixoterapevt Rövşən Nəcəfov intihar düşüncələrinin qaynaqlarına və onların müasir müalicə metodlarına dair məlumat verib. Vurğulayıb ki, intihar xəbərlərinin geniş yayıldığı hallarda bir bölgədə ardıcıl intihar hadisələri müşahidə edilə bilər. Bu, psixologiya elmində "suicide clusters" ("zəncirvari intihar") adlanır və belə hadisələr insanların bir-birini təhrik etməsi nəticəsində yaranır.

Həmin gün jurnalistlər və sosial media blogerləri İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzində olublar.

Təlim müddətində qadın və uşaq hüquqlarının düzgün işıqlandırılması prinsipləri, media vasitəsilə gender stereotipləri və məişət zorakılığı ilə halları ilə bağlı informasiya hazırlayarkən jurnalistlərin etik davranış qaydaları, həssas qruplarla ünsiyyət və müsahibə aparılması qaydaları barədə də məlumat verilib.

Təlimin yekununda BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinin üzvü, fəlsəfə dokroru Elgün Səfərov media nümayəndələrini və sosial media fəallarını gender problemlərinin həlli, zorakılığa qarşı mübarizə, qadın və uşaq hüquqlarının qorunması, Azərbaycanda ailə institutunun möhkəmləndirilməsi istiqamətində görülən işlərdə birgə əməkdaşlığa səsləyib.

Sonda jurnalistlərə və sosial media blogerləri nə təlimdə fəal iştiraka görə sertifikatlar təqdim olundu. Qeyd edək ki, mükafat alanlar arasında bu sətirlərin müəllifi də var.

***Fidan SALMANLI***
***XQ***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar cəmiyyəti

*ASCO-nun Xəzər Dəniz Neft Donanmasına tələb olunan işlənmiş aviatəkərlərin satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il sentyabrın 30-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2.

## "DƏZGAHQAYIRMA ZAVODU" ASC səhmdarlarının nəzərinə!

31 OKTYABR 2024-cü il saat 16.00-da Şirvan şəhəri, Cənub Sənaye Qovşağı ünvanında "DƏZGAHQAYIRMA ZAVODU" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin kreditorlar qarşısında öz öhdəliklərini yerinə yetirməsi məqsədilə aktivlərinin satılması və onların dəyərinin müəyyən edilməsi.

**2.** Cəmiyyətin təşkilati-hüquqi formasının dəyişərək MMC-yə çevrilməsi.

Cəmiyyət ləğv olunaraq cəmiyyətə məxsus bütün səhmlərinin dövriyyədən çıxarılması.

**3.** Cəmiyyətin icra orqanının rəhbərinin tutduğu vəzifədən azad olunması və onun yerinə yeni icra orqanın rəhbərinin təyin edilməsi.

**4.** Görülmüş və gələcəkdə görüləcək işlərlə bağlı digər məsələlərin müzakirəsi.

**5.** Cəmiyyətin tərkibindən yenidən təşkilin ayrılma formasında yeni hüquqi şəxsin ayrılması.

**6.** Cəmiyyətin müraciət edən səhmdarlara məxsus səhmlərin ləğv olunaraq cəmiyyətdən ayrılması və çıxan səhmdarlarla səhmlərə uyğun payın natura şəklində təhvil-təslim edilməsi, həmçinin təhvil-təslim aktının və razılaşma müqaviləsinin imzalanması səlahiyyətinin icra orqanının rəhbərinə həvalə edilməsi.

**7.** Cəmiyyətin nizamnaməsinin yeni redaksiyada təsdiqi.

**8.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində nəzərdə tutulmuş səlahiyyətlərin cəmiyyətin icra orqanının rəhbərinə həvalə edilməsi.

Telefon: +994 10 318 98 93.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 206 (30610) 21 sentyabr 2024-cü il, şənbə

# FIDE Faiq Həsənovu mükafatlandırıb

**Budapeştdə təşkil edilən 45-ci Ümumdünya Şahmat Olimpiadası günlərində Beynəlxalq Şahmat Federasiyasının qala gecəsi keçirilib.**



Mərasimdə Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç və Beynəlxalq Şahmat Federasiyasının (FIDE) vitse-prezidenti, Azərbaycan Şahmat Federasiyasının (AŞF) prezidenti Mahir Məmmədov çıxış edib. AŞF rəhbəri çıxışında ali şahmat qurumunun yaradıcılarını xatırladıb:

– FIDE-nin tarixində ilk 100 illik möhtəşəm anlar, dahi şəxsiyyətlər və unudulmaz matçlarla yadda qaldı. Buna görə biz FIDE-nin yaradıcılarına minnətdar olmalıyıq.

Sonra FIDE şahmat tarixində böyük xidmətləri olan şahmatçı, məşqçi və digər nominasiyalar üzrə mükafatları təqdim edib.

Gecədə Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, uzun illər mötəbər yarışlarda hakim kimi çalışan Faiq Həsənov xüsusi mükafata layiq görülüb. FIDE-nin rəsmi saytı F.Həsənovun uğurları barədə bunları qeyd edib:

– Azərbaycan şahmatının patriarxı Faiq Həsənov dünyanın güclü şahmat ölkələrindən olan Azərbaycanda bu növün inkişafında böyük xidmətlər göstərib. 1980-ci ildə beynəlxalq dərəcəli hakim adını qazanıb. O olimpiada, Dünya Kuboku, Qran-Pri, yeniyetmələr arasında və komandaların dünya çempionatında baş hakim, Se Çzyun-Syuzan Polqar arasındakı matçda isə baş hakimin müavini kimi çalışıb. 1975-ci ildən Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti kimi ölkəsində şahmatın inkişafı naminə fəaliyyət göstərir. O həmçinin 55 il Azərbaycan Televiziyasında yayımlanan "Şahmat klubu" həftəlik verilişinin aparıcısı kimi tanınıb.

# Güləşçimiz bürünc medal qazanıb

**Qazaxıstanın Atırau şəhərində keçirilən "Oil Capital Cup" turnirində Azərbaycanın sərbəst güləşçisi 3-cü yeri tutub.**




Komandamızın üzvü Musa Ağayev (65 kq) 1/4 finalda gürcüstanlı Luka Janeraşvili üzərində tam üstünlüklə – 11:0 hesablı qələbə qazansa da, final uğrunda qazaxıstanlı Mayis Aliyevə (2:13) məğlub olub.

3-cü yer uğrunda Qazaxıstanın digər təmsilçisi Bek Jaksilikova 5:1 hesabı ilə qalib gələn güləşçimiz yarışda bürünc medal qazanıb.

# Akrobatika gimnastlarımız dünya çempionatının finalında

**Azərbaycanın akrobatika gimnastları Portuqaliyanın Qimarayeş şəhərində keçirilən dünya çempionatında finala yüksəliblər.**



Təmsilçilərimiz Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyü temp hərəkətlərində həlledici mərhələyə vəsiqə qazanıb. Onların çıxışı hakimlər tərəfindən, ümumilikdə, 27.020 xalla qiymətləndirilib.

Qeyd edək ki, turnirə sentyabrın 22-də yekun vurulacaq.

*L.QURBANOVA*
*XQ*

**Qardaş elləri gəzərkən**

# Çırpınırdı Qara dəniz…




**(əvvəli qəzetin 19 sentyabr sayında)**

## İki "balıqçı"nın söhbəti

Mayaka gedən yol otelin yaxınlığından keçirdi...Arabir dayanıb geriyə – yenicə yuxudan oyanan şəhərə, sahil boyu ləpədöyənə atılmış iri qaya parçalarına, beton kubiklərə baxırdım. Yolun kənarında köhnə bir balıqçı gəmisi lövbər salmışdı. Mayak tərəfdən oğlanla qız bərkdən danışa-danışa şəhərə tərəf gəlirdilər. Mənə elə gəldi ki, onlar gecəni buralarda keçirmişdilər.

Mayaka yaxın bir yaşlı kişi qarmağı suya sallayıb oturmuşdu. Yaxınlaşıb salam verdim. O, salamımı alıb ayağa qalxdı. Soruşdum ki, balıq var?

– Yağmurlu günlərdə balıq az olur, – dedi.

Sonra yanaşı oturub gözlədik... Arada dedi ki, buralarda eşqaya adlı balıq var, ancaq axşamlar gəzişir, gündüzlər yatır. Həmin balığın beynində daş olur. Əti böyrəyə, qaraciyərə dərmandır. Ümumiyyətlə, hər balığın öz tutulma saatları var...

Qarmaqlardan birinə bir hamsi düşdü. Nihad bəy balığı yarıya qədər su olan qaba atanda gördüm ki, orada yeddi-səkkiz balıq var. Onunla yaşıd olardıq. Bakıdan gəldiyimi biləndə dedi ki, yəqin burada uşağınız oxuyur. Sonra da əlavə etdi ki, azərilər Giresuna daha çox universitetdə oxuyan övladlarına görə gəlirlər.

Nihad bəy əslən giresunludur. Bu şəhərdə evi də var. Ancaq neçə illərdir ki, İstanbulda yaşayır. Deyir ki, cavanlığımda bir neçə il balıqçılıqla məşğul oldum. Bir şey artıra bilmədim. Getdim İstanbula. Avtomobil zavodunda işə düzəldim. Təqaüd yaşına çatanda xanımım dünyasını dəyişdi. İndi tək qalmışam. Günümü müxtəlif şəhərlərə səyahətlə, balıq ovu ilə və sairlə keçirirəm. Övladımız olmadığı üçün arabir oyuncaq və başqa hədiyyələr alıb uşaq evinə gedirəm...

Xudahafizləşəndə Nihad bəy məni evinə dəvət elədi. Ancaq o gün Giresun Universitetində qardaşım oğlu Muradın buraxılış tədbiri olacağı üçün Nihad bəyə təşəkkür edib, oradan ayrıldım.

Otelə qayıdanda Muradla tələbə yoldaşı Bəxtiyar 1-ci mərtəbədə məni gözləyirdilər. Qəhvəaltı zamanı zarafatla dedilər ki, əmi, kirayə qaldığımız evdən qayıqla çıxmışıq. Sən demə, dünən səhər düşən leysanın seli onların kirayə qaldıqları mənzilə dolub. Yuxulu olduqlarından otaqdan güclə çıxıblar və hər şey su altında qalıb. Amma məni qarşılamağa gələndə bu barədə heç nə deməmişdilər...

## "İynə atsaydın yerə düşməzdi"

Hər yan rəngbərəng plakatlarla, Giresun Universitetinin emblemi, görkəmli şəxsiyyətlərin elm və təhsil haqqında deyimləri ilə bəzədilmişdi. Buraya 7-dən 77-dək hər cür insan toplaşmışdı. Hamını bir istəyin doğurduğu sevinc birləşdirirdi. Biri övladının, digəri nəvəsinin, bir başqası qardaşının sevincinə ortaq olmaq üçün buraya gəlmişdi. Oturacaqlarda əyləşənlərin çoxu bir-birini tanımasa da qısa müddətdə isinişmişdilər və hamısı günün qəhrəmanlarından danışırdı.

Çox əlamətdar gün idi. 2006-cı ildə Türkiyənin ali təhsil sisteminə qoşulmuş və hazırda 16 ölkədən 30 mindən çox tələbənin təhsil aldığı Giresun Universiteti yeni məzunlarını yola salmağa hazırlaşırdı. Mantiya geyinmiş bu oğlan və qızlar ali təhsilli mütəxəssislər kimi həyata vəsiqə alırdılar. Bu tədbir həm də Giresun şəhərinin həyatında mühüm hadisə sayıla bilərdi. Çünki bu məzunlar, müəyyən mənada, Giresunun vətəndaşları idilər və bundan sonra istər Türkiyədə, istərsə də yaxın-uzaq ölkələrdə çalışsalar da, ürəklərində Giresun adını yaşadacaq, bu gün içəcəkləri anda sadiq olduqlarını nümayiş etdirməyə çalışacaqdılar...

Sonra başa çatmaqda olan tədris ilində elm-təhsil və idman sahəsində ilk üç yeri tutan gənclərin adları açıqlandı və onlara müxtəlif mükafatlar verildi. Ölkə idmanında qazandıqları medallara görə bir neçə məzun da mükafatlandırıldı. (Məlumata görə, ötən il universitet 1-cisi və tibb fakültəsi üzrə 1-ci azərbaycanlı gənclər olublar). Bir-birinin ardınca marşlar çalınır, şərqilər oxunurdu. "Çırpınırdı Qara dəniz" mahnısını stadionda hamı bir ağızdan oxuyurdu...

Məzunlar dəstə-dəstə stadionu dolanır, buraya toplaşan doğmalarını əllərində tutduqları papaqla salamlayırdılar. Onların arasında Azərbaycandan olan xeyli gənc vardı.



Andiçmə mərasimindən sonra məzunlar eyni anda papaqlarını göyə atdılar və sonra stadionu dövrə vurdular. Bir-birindən yaraşıqlı oğlan və qızlara baxdıqca, Azərbaycan Dövlət Universitetinə (indiki BDU - red) əlvida söylədiyimiz günlər yadıma düşdü. Əlimizə təyinat əvəzinə bir məktub verib lazım olan yerlərə yola saldılar. Onda belə təntənə-zad yox idi...Həyat belədir – biri keçmişinə baxır, biri gələcəyinə. Türk şairi Nəcib Fazil isə belə deyib: "Ömrün ilk yarısı ikinci yarısını gözləməklə, ikinci yarısı da ilk yarısının həsrətilə keçir".

Axırda məzunlar valideynləri və ya onları əvəz edən doğmaları ilə görüşdülər. Çox həyəcanlı anlar yaşanırdı. Bir nənə nəvəsinin mantiyasını öpürdü. Bir ana oğlunu qucaqlayıb deyirdi: "...rəhmətlik atana verdiyim sözü tutdum, axır ki, sən universiteti bitirdin". Bu arada Murad dedi ki, əmi, sən də bizim mantiyanı geyin, axı o vaxt geyinməmisən. Uşaqlar mantiyanı mənə geyindirib şəklimi də çəkdilər. Qismətə bax ha, harada oxuyasan, haranın mantiyasını geyinəsən...Yanımızdan keçənlər mənə təəccüblə baxırdılar. Mən isə özümü o yerə qoymurdum.

Elə bil yağış tədbirin başa çatmasını gözləyirmiş...Amma biz Giresun qalasından enəndə yenə Günəş gülümsəyirdi.

Bu "cızma-qara" Giresun gündəliyimin bir hissəsidi. O günü yəqin ki, universitet məzunları heç vaxt unutmayacaqlar. Elə mən də unutmayacağam. Çünki o günlər məni bir daha gəncliyimə qaytardı və həmin günlərdə sanki xoşbəxt günlərimdən qalan bir parça ömrümü yaşadım. O günlərdə dünyanın işığı elə bil artmışdı. Yaşılla mavinin qovuşduğu Giresuna ayna tutan Qara dəniz də çırpınmır, rahat-rahat qırçın ləpələri ilə sahili yalayırdı.

*Səməd MƏLİKZADƏ*

**Bakı–Giresun–Bakı**

# Yaşıl limon – tez qocalmaya son!

**Yaşıl limonun bir çox sağlamlıq faydası var. Bu meyvədə sarı limondan daha zəngin vitamin C olduğundan antioksidant xüsusiyyətləri də çoxdur.**



Dietoloqlar yaşıl limonun faydalarından danışarkən qeyd edirlər: meyvə hər şeydən əvvəl yüksək miqdarda vitamin C tərkibinə malik olduğundan immun sistemini gücləndirir və orqanizmi infeksiyalara qarşı daha dayanıqlı edir;

– antioksidant xüsusiyyətləri sayəsində yaşıl limon dərinin tez qocalmasının qarşısını alır, qırışların və ləkələrin əmələ gəlməsini gecikdirir;

– limon suyu həzmi asanlaşdırır, mədə turşusunu tarazlayır və mədə problemlərinin həllinə kömək edir;

– yaşıl limonun detoksikasiyaedici xüsusiyyətləri bədəni toksinlərdən təmizləyir. Həmçinin, limon suyu maddələr mübadiləsini sürətləndirərək arıqlama prosesinə dəstək olur;

– flavonoidlər və vitamin C damar sağlamlığını qoruyur, qan təzyiqini tənzimləyir və ürək-damar xəstəlikləri riskini azaldır;

– tərkibindəki turşular böyrək və sidik yollarını təmizləyir və infeksiyaların qarşısını alır.

Yaşıl limonun suyunu gündəlik su qəbuluna əlavə etdikdə bədənin su balansını saxlamağa və enerjili hiss etməyə kömək edir.

*Z.HÜSEYNLİ*
*XQ*

# Yay payızın qədəminə su səpir

**Sentyabrın 21-də Azərbaycanda yağış yağacağı gözlənilir. Bu barədə mətbuata Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Bildirilib ki, sabah Bakıda və Abşeron yarımadasında tutqun hava şəraiti üstünlük təşkil edəcək. Gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı, gündüz dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 22-25° isti olacaq. Atmosfer təzyiqi 762 m civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 50-55 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Axşam əksər rayonlarda yağıntılar tədricən



kəsiləcək. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 23-27° isti, dağlarda gecə 5-10° isti, gündüz 10-15° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi Asəf Həsənova qayınatası

**XALİD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3924
SİFARİŞ 2119
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00